İradə Əlili

# GÜLLƏ SƏSİNDƏN DOĞULAN KİTAB

Bakı - 2023

Bu kitab Ağdam rayon şəhidi İbahim Əhmədpurun şərəfli döyüş yolundan bəhs edir.

Redaktor: German, şair-publisist

Korrektor: İlhamə Sultan

**İradə Əlili "GÜLLƏ SƏSİNDƏN DOĞULAN KİTAB"**
**Bakı, "Ecoprint", 2023, təkrar nəşr. 144 səh.**

**ISBN: 978-9952-29-100-1**

**© İradə Əlili**

***Xalqımız əsrlər boyu həmişə öz torpağını qoruyub, öz milli azadlığını, qürurunu müdafiə edib və bu gün də müdafiə etməyə qadirdir."***

***H. Əliyev***

* * *

***Allah yolunda öldürülənlərə (şəhid olanlara), "ölü" deməyin. Əksinə,onlar (Allah dərgahında) diridilər, lakin, siz bunu dərk etmirsiz. (Bəqərə 154)***

* * *

***Hər bir kəs ölümü dadacaqdır. Şübhəsiz ki, mükafatlarınız qiyamət günü tamamilə veriləcəkdir. Oddan uzaqlaşdırılıb, Cənnətə daxil edilən kimsə muradına çatacaqdır. Dünya həyatı isə aldadıcı həzdən başqa bir şey deyildir. (Al-İmran 185)***

*Bu yazımı da başlamazdan əvvəl cəbhə bölgəsinin düşmənlə təmas xəttində yerləşən kəndlərimizə üz tutdum. O kəndlərimizə ki, onların uğrunda neçə-neçə oğullarımız canlarından, qanlarından keçmişlər. Onların müdafiəsində neçə-neçə mərd oğlanlarımız, igid qızlarımız şücaət, mətanət göstərib ,doğma Vətənin müdafiəsinə qalxmışlar. Bax həmin o ürəyi dərdli kəndlərə yaxın bir məkana üz tutdum. Yaxınlaşdıqca gözlərimin önündəki dağıdılmış, güllələbaran edilmiş evlər, səs-səmiri kəsilmiş sahibsiz həyətlər müharibəyə nifrət edən bir insan kimi məni də narahat etməyə başladı.*

*Yurduma göz dikib, onun bir hissəsini işğal edən, övladlarının cənazəsi üstündə anaların saçlarını bir gecədə ağardan, bir milyona yaxın qaçqın ordusunun yaranmasında rol oynayan mənfur düşmənlə məni, demək olar ki, qısa bir zaman və məsafə kəsiyi-tikanlı məftillər ayırırdı. KEÇMƏK OLMAZ!!! DUR!!!-məntiqi ilə bu tikanlı məftillər məni hələlik girov düşən, qərib və tənha görünən doğma Vətənimin bir parçasından ayırırdı...*

***Redaktordan***

# GÜLLƏ SƏSİNDƏN DOĞULAN KİTAB

İradə Əlili. Əlinizdəki kitabın müəllifi olan bu zərif, ilk baxışdan kövrək xanımın əzminə, iradəsinə, vətənpərpərliyinə və zəhmətsevərliyinə heyranam. Heyran olmamaq mümkün deyil. Əslində şairdir İradə xanım. İki şeirlər kitabının müəllifidir. Kövrək, romantik, Vətən sevgisiylə yüklənmiş şeirləri var. İradə xanımın bir neçə şerini oxuduqdan sonra elə bilirsən ki, onu lap çoxdan tanıyırsan. O qədər sadə və səmimi yazır ki, o şeirlərdə özünü görürsən, öz duyğularını görürsən, arzularını, xəyallarını görürsən.

İradə xanımın yaradıcılığını daha da maraqlı edən onun müharibə mövzusuna müraciət etməsi, müharibə iştirakçılarının, şəhidlərin həyatından yazmasıdır. Mən özüm on dörd kitabın müəllifiyəm. Onlardan dördü şerlər toplusu, onu isə publisistik əsərlərdən ibarət kitablardır. Buna görə də yaxşı bilirəm ki, bir neçə səhifəlik bir yazını yazmaq üçün bir neçə nəfərlə görüşmək, söhbət etmək və yazacağın insan haqqında kifayət qədər məlumat toplamaq lazımdır. Bununla yanaşı özünün də müəyyən bilgilərin olmalıdır. Mən sonuncu Qarabağ müharibəsinin, müharibədən əvvəl bir neçə il baş verən hadisələrin, meydan hərəkatının

şahidi və iştirakçısı olduğumdan çox adamları tanıyıram, çox işlərdən xəbərdaram. Buna görə də müharibə mövzusunda yazmaq mənə o qədər də çətinlik yaratmır. Həm də bu mövzu mənə doğmadır axı. Mən Ağdamda doğulub, boya-başa çatmışam. Ağdamın işğalınadək (23.07.1993.) Ağdamda olmuşam. Gənclik illərimin ən xoş xatirələri Qarabağla, Qarabağlılarla bağlıdır. Şuşanın, Laçının, Kəlbəcərin, Füzulinin, Cəbrayılın, Qubadlının, Zəngilanın dilbər guşələrini, gəzməli yerlərini qarış-qarış gəzmişəm, İsti suda, Turş suda, Dəlidağda, Qırxqızda, Murovda, Kirsdə şalvarımın balaqları şehdən islana-islana gəzmişəm, sinədolusu nəfəs almışam, təbiətin gözəlliklərindən ilham ala-ala bu Vətəni sevmişəm. Qarabağın görkəmli insanları ilə, mərd, Sonralar müharibə dövründə yaxından tanıdığım, dostluq etdiyim igid oğlanların Vətən uğrunda candan keçmələrinin, Ağdamın bombalandığının, yerlə yeksan edildiyinin şahidi olmuşam. Bu ağrılar içimdən keçib, doğmalaşıb mənə. Yazdıqlarım içimdəki dərddən, ağrıdan, Vətən həsrətindən, Qarabağda qoyub, gəldiyim, illərdən bəri ziyarət edə bilmədiyim şəhid məzarlarından doğulub, göz yaşlarımla yoğrulub. Eeeh...

*Qoynunda bir qarış yer ayır mənə,*
*Gömülüb bətninə sən olum, Vətən.*
*Dağların başında bir topa bulud,*
*Çölündə, düzündə çən olum, Vətən.*

*Bu çöllər, bu düzlər, bu qarlı dağlar,*
*Bu barlı, bəhrəli, meyvəli bağlar,*
*Ot da bitirməyən tarlalar ağlar,*
*Bir zəmi yetirən dən olum, Vətən.*

*Qarşında diz çöküb, sənə and içim,*
*Yox başqa bir yolum, başqa bir seçim,*
*Gedim düşmən üstə, canımdan keçim,*
*Bir şəhid balan da mən olum, Vətən.*

*Qırxqızda dayanıb, Şuşaya baxım,*
*Qarqara qarışıb, Ağdama axım,*
*Murovun başına bir bayraq taxım,*
*Qurtarım matəmdən, şən olum, Vətən.*

Bu şeiri mən yazmışam, çoxdan yazmışam.İtirilmiş Vətən ağrısıyla yazmışam, doğma ata-baba ocağına qayıtmaq arzusu ilə yazmışam, Vətən torpağına qarışıb, Vətənləşmiş müqəddəs şəhidlərimizə həsədlə yazmışam. Ağlaya-ağlaya yazmışam. İtirdiklərimin miqyası, dəyəri ölçüyə gəlməz mənim. Bunu ancaq mən dərddə olanlar bilər.

Atəşkəsdən sonra Bakı şəhərində Elman adlı bir dostumuzu, müharibədə çox əziyyət çəkmiş bir döyüşçümüzü maşın vurdu və Elman öldü.Bilirsiniz fikrimdən ilk keçən nə oldu? Hə, acıdır, həm də çox ağırdır. Fikirləşdim ki, kaş ki, Elman müharibədə düşmən gülləsinə tuş gələydi, şəhid olaydı, Xocalıdan meyitləri, əsirləri minbir əziyyətlə çıxaranda öləydi.Ta

Bakıda harınlamış birinin sürətlə sürdüyü maşının təkərləri altında acınacaqlı vəziyyətdə dəyişməyəydi dünyasını. Eeh, nəysə...

Bütün bunları yazmaqda məqsədim yalnız odur ki, mən müharibəni görmüşəm, yazıram, müharibə iştirakçılarını tanıyırdım, yazıram, Qarabağı gəzmişəm, yazıram.İradə Əlili isə nəinki müharibəni görməyib, heç müharibədən əvvəl və müharibə dövründə Qarabağda olmayıb da. Amma içində elə bir Vətən sevgisi, elə bir Vətən yanğısı, elə bir Vətənpərvərlik var ki, müharibə mövzusunda yazmağı, müharibə iştirakçılarından yazmağı, şəhidlərimizdən yazmağı özünə borc bilir, vətəndaş vəzifəsi bilir, vicdan işi bilir.

Şəhid İbrahim Əhmədpurun şərəfli həyatından bəhs edən bu kitab İradə Əlilinin müharibə mövzusunda qələmə aldığı üçüncü kitabdır.Ancaq bu kitablara qədər İradə xanım xeyli yol gəlib.Poetik duyğuları ilə, romantik düşüncələriylə, qəlbindən süzülüb gələn iki şeirlər kitabıyla.Görün nə yazır, İradə Əlili şeirlərində, necə yazır, necə tərənnüm edir Vətəni.

### *Anam mənim Azərbaycan!*

Vətənimsiz olammaram,
Torpağımsız qalammaram,
Od, ocaqsız qalanmaram,
Vətən, sənə qurban bu can!
Sən mənim görən gözümsən,
Sən döyünən ürəyimsən,

Sevgi dolu sətirimsən,
Vətən sənə qurban bu can
Sənsiz könlüm heç açılmaz,
Arzularım qanadlanmaz,
Sabahıma ümid olmaz,
Can evimdə sən əziz can
Anam mənim Azərbaycan

## *Tufan adlı bir dərd gəldi!*

Açan tər çiçəklərimiz solan oldu,
Həsrətimiz səbrimizlə yanan oldu.
Tufan adlı bir dərd gəldi...
Yurdumuza, yuvamıza yaman oldu.
Qarabağım qara dərdli
Yurdum, yuvam talan oldu.
Baharı da boran-qışlı,
Buludlar dalğın yağışlı,
Bulaqların gözü yaşlı,
Dağlarına duman doldu.
Qarabağım qara dərdli
Yurdum, yuvam talan oldu.

## *Ağla, qərənfilim!*

Ağla, qərənfilim, şəhidlər üstə,
Sənin göz yaşların bitməz, tükənməz!
Dağla sinəsini ürəksizlərin,
Şəhidsiz, azadlıq, qədrin bilinməz!

Şəhidlər ürəklər yarası oldu,
Tarixdə silinməz bir iz qoyuldu!
Şəhidlik qəlblərdə qala daşıdır!
İgidlik zirvəsi qan yaddaşıdır!
Ağla, qərənfilim, şəhidlər üstə
Ağlayaq qarışsın gözyaşlarımız,
Baxaraq qan rəngli ləçəklərinə
Rahat uyusunlar doğmalarımız
Ağla, qərənflim, Şəhidlər üstə!

Hə, bax belə sevir Vətənini bu gözəl, kövrək, qəlbi səmimi duyğularla dolu olan şairəmiz.

Amma əlinizdəki kitab şeir kitabı deyil, ağrılı, acılı, müharibəli, şəhidli bir kitabdır. Döyüşçü İbriahim Əhmədpurun həyatından, şərəfli döyüş yolundan, müqəddəs şəhidliyə aparan amalından bəhs edir. Bu kitabda siz İbrahimin həm də uşaqlıq, gənclik illəri ilə, saf sevgi üzərində qurulmuş ailə həyatı ilə bağlı kövrək yazıları oxuyacaqsınız.

Bu kitabı araya-ərsəyə gətirmək üçün müəllif çox əziyyətlərə qatlaşmalı olub, amma bu əziyyətlərdən yorulmayıb, usanmayıb, əzmlə, iradə ilə bu əziyyətlərdən keçərək məqsədinə nail olub, layiqli bir Vətən övladı haqqında kitab yazıb, oxuculara təqdim edib. Kitabın daha da oxunaqlı olması üçün İradə xanım Ağdamın bizdə olan kəndlərinə gedib, keçmiş döyüşçülərlə, İbrahimin silahdaşlarıyla, qohumlarıyla, ailə üzvləriylə görüşüb, fikirlərini öyrənib, kağıza köçürüb. Böyük əziyyətlərə qatlaşan müəllif nəhayət ki,

gənclərə Vətənpərvərlik duyğuları aşılamaq baxımından çox dəyərli olan bu kitabı çap etdirib. Kitab artıq əlinizdədir. Bundan sonra söz sizindir, əziz oxucular. İradə xanıma isə can sağlığı, yeni-yeni kitabların, əsərlərin yazılmasında uğurlar arzulayıram.

**German**
*şair-publisist*



# YARIDA QALMIŞ BİR ÖMRÜN TARİXÇƏSİNDƏN

Əhmədpur İbrahim Səfər oğlu 1955-ci ilin sentyabr ayının 3-də Ağdam şəhərində anadan olmuşdur. Orta təhsillidir. O, 1962-cı ildə Ağdam şəhərində orta məktəbin 1-ci sinfinə gedib və 1972-1973-cü tədris ilində həmin məktəbi bitirmişdir. Atasını uşaq ikən itirmişdi. İbrahim artıq uşaq ikən hiss etmişdi çətinliyi, ehtiyacı. Yeniyetmə yaşında artıq o, zəhmətə alışmışdı. İbrahim çalışqanlığı ilə həm zəhmətkeş bir insan kimi, həm də vətənini sevən bir vətənpərvər kimi özünü cəmiyyətdə təsdiq etmişdir. Yaxınlarının danışdıqları xatirələrdən məlum olur ki, o hələ yeniyetmə olan çağlarından Vətənə çox bağlı olmuşdur. Gənc yaşlarında artıq ailə qayğısı çəkən İbrahim bacı və qardaşlarının ağırlığını öz çiyinlərinə götürmüş, onların xoş, firavan yaşamaları üçün əlindən gələni etmişdir. Ailə üzvlərinin sosial-maddi problemlərini öz üzərinə götürərək, əzizlərinin gözəl yaşamasını bir oğul kimi, bir qardaş kimi təmin etmişdir. Bacı-qardaşlarından İbrahim barəsində xatirələrini soruşduqda hər biri ayrı-ayrılıqda İbrahim haqqında ürək dolusu və yana-yana danışırdılar. Onlar bir ata, qeyrətli qardaş itirdiklərini göz yaşları ilə söylədilər.

Əhmədpur İbrahim 1981-ci ildə sevdiyi qız - Almaz Zeynalova ilə ailə həyatı qurdu. Bu nigahla gözəl,

xoşbəxt bir ailənin təməli qoyuldu. Onlar xoş, firəvan günlərini yaşayır, həyatın çətin və daşlı-kəsəkli yollarını birlikdə addımlayırdılar. Çətinliyə birlikdə sinə gərib, birlikdə də bu çətinliyə qatlaşırdılar. Tale bu gözəl və gənc ailəyə üç övlad, üç oğul payı qismət etdi. Amma bu xoşbəxtlik uzun sürmədi, arzular, xəyallar yarıda qaldı. Amma bu arzuların boynubükük olub, gerçək olmaması nə ailəsini sevib, ömrünü verən İbrahimdən asılı idi, nə də ailəsini həyatının özəyi bilən, həyat yoldaşını özündən də çox sevən Almaz xanımdan!..



# MÜHARİBƏ



Müharibə iştirakçıları yaxşı bilirlər ki, müharibə kinolarda olduğu kimi maraqlı və asan olmur. Həm də müharibə qorxaqların, iradəsizlərin yeri deyil. Düşmən gülləsinə sinə gərmək üçün sağlam canın, dəmir iradən, döyüşkən ruhun və ən əsası köksündə Vətən sevgisi ilə döyünən ürəyin olmalıdır. Sonuncu Qarabağ müharibəsində on minlərlə belə cəsur oğullar düşmənin üstünə yeridilər. Gözlərini qırpmadan, canlarını əsirgəmədən. Mən həmişə o fikirdə olmuşam ki, hər bir müharibə iştirakçısının həyatı ayrıca bir romanın, ayrı-ayrı qəhrəmanların həyatları isə tarixi əsərlərin mövzusudur. Təəssüflər olsun ki, mən yazıçı deyiləm, şair-publisistəm. Buna görə də müharibənin bəzi məqamları və müxtəlif insanların həyatları ilə bağlı kiçik həcmli publisistik əsərlərlə kifayətlənməli oluram.

* * *

Uşaqlıqda sözə baxmayıb, nadinclik edəndə valideynlərimiz bizi ya xortdanla, ya da adamyeyənlə hədələyərdilər. Biz də nə xortdanı, nə də adamyeyəni tanımasaq da özümüzü yığışdırardıq. Onların hər ikisini qorxunc, eybəcər və çox böyük bir varlıq kimi təsəvvür edərdik. Bir az böyüdük və dərk elədik ki, həyatda nə xortdan var nə də adamyeyən. Bunların hər ikisi uşaqları qorxutmaq üçün böyüklərin uydurmasıymış. Bir az da böyüdük. Qarabağ müharibəsi başladı. Vətənini, elini, obasını, xalqını, millətini sevən ər igidlər vətəni təcavüzkar düşməndən qorumaq üçün müharibəyə yollandılar. Arxada qalan uşaqlar atılan güllələrin səsini eşidib, qorxmasınlar deyə sinələrini sipər etdilər. Axı bu müharibə idi, uşaqlıqda eşitdikləri xortdan və ya adamyeyən deyildi. Amma elə xortdan da, adamyeyən də müharibə imiş, sən demə. Gör neçə min insanı yedi diri-diri. Özü də ən igidlərini, ən cəsurlarını. Təkcə atəşkəsə qədər 22500 nəfərimizi apardı bu "xortdan". Nəfəsini kəsmədiyimizə görə atəşkəsdən sonra da ara-sıra əl uzadıb, cavan-cavan əsgərlərimizi aparıb yeyir bu xortdan-müharibə. Hə, sonu görünməyən bu müharibə yeddi başlı əjdahadır, xortdandır, adamyeyəndir elə bil. Bəlkə də buynuzlu, quyruqlu şeytandır, iblisdir. Hər nədirsə, ağıllı hesab edilib, dünyanın idarə edilməsi həvalə olunan "başbilənlərin" fitnə-fəsadlarından yaranır. Məqsədləri nədirgörəsən "başbilənlərin"? Evsiz qalan insanları, atasız qalan uşaqları, dağıdıb xara-

bazara çevrilən şəhərləri, kəndləri görəndə ürəkləri ağrımır onların, görəsən? Görünür ki, ağrımır. Ağrısaydı Xocalı müsibətinə elə laqeydlik göstərməzdilər. Ağrısaydı Bosniyada, Hersoqovinada qırılan insanların taleyinə elə biganə qalmazdılar. Ağrısaydı İsraillə Fələstin arasındakı tükənmək bilməyən müharibəyə bir əncam çəkərdilər. Ağrısaydı İraqı, Misiri, Suriyanı, Livanı o günə salıb, İrana diş qıcamazdılar. Belə çıxır ki, elə xortdan da, adamyeyən də dünyanı idarə etməli olan, insanlara sülh, əminamanlıq gətirməli olan, dünyanın keşiyində durub, qayğısını çəkməli olan "bığlı-saqqallı" kişilərmiş! Nə bilim, vallah. Uşaq vaxtı xortdandan, adamyeyəndən heç bu qədər qorxmurdum axı, deyəsən. Yəqin qorxmurdum! Çünki uşaq vaxtı xortdanın, adamyeyənin təkcə adıvardı, özü görünmürdü. Amma indi adı da var, özü də. Özü də bir deyil, beş deyil, on deyil... Sayı-hesabı bilinməyən bu xortdanlar, adamyeyənlər daraşıblar dünyanın canına. Yediklərini yeyirlər, yemədiklərinin də qanlarını sorurlar. Bütün bunları da Allah görür axı. O da insanları düz yola yönəltmək üçün zəlzələləri, qasırğaları, tufanları göndərir. Göndərir ki, ağlımız başımıza gəlsin, özümüzü yığışdıraq. Ay yığışdırdıq ha. Biz də bizik axı. Əstəğfurullah, Allahlıq iddiasındayıq. Şeytanıq, iblisik, xortdanıq, adamyeyənik! Ağdamdan başqa hər şeyik. Amma Allah bizi insan yaradıb axı. Tərifimizi də verib: - “Yer üzünün əşrəfi insan”. Bəs niyə dönüb, birdən-birə xortdan olduq, adamyeyən olduq? Ha fikirləşdim, cavabını tapa

bilmədim. Tapan olsa, mənə də deyin, xahiş edirəm.

P.S, Dünya bərqərar olandan minlərlə müharibələr olub. Ədalətli, ədalətsiz müharibələr, səbəbli, səbəbsiz müharibələr. Altı günlük müharibə də olub, yüz illik müharibə də. Mənə elə gəlir ki, bu müharibələrin içərisində ən dəhşətlisi İkinci dünya müharibəsi olub. 1939-cu ilin sentyabr ayının 1-də Adolf Hitlerin rəhbərlik etdiyi faşist Almaniyasının Polşaya hücumu ilə başlayan bu müharibə çox böyük sürətlə bütün Avropanı bürüdü və 1941-ci ilin iyun ayının 22-də SSRİ - yə də sirayət elədi. 1945-ci ilin may ayının 9-da Alman faşistlərinin tam darmadağın olunması ilə başa çatan bu müharibədə SSRİ iyirmi milyondan artıq adam itirdi. Yüzlərlə şəhərlər və kəndlər xarabalığa çevrildilər. Sankt-Peterburq (Leninqrad şəhəri) 900 gün mühasirədə qaldı. Volqaqrad şəhərinə milyon tondan artıq bomba atıldı. Amma sovet ideologiyası və vətənpərvərlik təbliğatı insanların əzm və iradəsinin qırılmaması üçün bir an belə dayanmadı. Arxa cəbhədəkilər gecə-gündüz çalışdılar ki, cəbhədəkilər heç nədən korluq çəkməsinlər. Evlərindəki dəmir qab-qaşıqlarını belə dövlətə verdilər ki, əridib silah düzəltsinlər. İkinci dünya müharibəsinin SSRİ-nin payına düşən hissəsi Böyük Vətən müharibəsi (Velikaya Oteçestvennaya voyna) adlanır. Buradakı böyük sözü bu müharibənin dörd ilə yaxın davam etməsinə deyil, insanların dözümünə, vətənpərvərliyinə, qəhrəmanlığına, rəşadətinə və cəsarətinə işarədir. Həmin müharibənin iki məşhur şüarı vardı:

– Vətən - ana çağırır:

– Hamı bir nəfər üçün, bir nəfər hamı üçün.

Bu müharibədə yarım milyondan artıq azərbaycanlı döyüşçü döyüş yolunu Şimali Qafqazdan başlayıb, Ukraynanı, Belorusiyanı, Moldovanı, Polşanı və daha neçə ölkəni faşizm əsarətindən azad etdikdən sonra Berlində başa vurdular. O döyüşçülərin yarısından çoxu "Arxada Vətəndir" deyib, özlərini güllə qabağına atdılar və müharibədən qayıtmadılar. Ona görə də o müharibə BÖYÜK adlandırıldı. Adı özünə, özü adına yaraşdı və tarixdə də BÖYÜK kimi qaldı. Biz isə öz evimiz, yurd-yuvamız, babalarımızın məzarları, şərəfimiz, namusumuz uğrunda olan müharibədə kənardan seyrçi mövqe tutduq. Azərbaycanın tarixi əraziləri olan İrəvandan, Vedibasardan, Zəngəzurdan yurddaşlarımız qovulanda"ermənilərqudurub" - dedik. Ağdamda, Füzulidə, Şuşada, Laçında, Kəlbəcərdə... ölüm-dirim mübarizəsi gedəndə başqa bölgələrdə "erməni nədir ki, onun öhdəsindən gələ bilmirsiniz?" - deyib, kənardan baxdılar. Ona görə də 22500 nəfərin şəhid, yüzlərlə soydaşımızın itkin və əsir, 44000 nəfərin əlil olduğu bu müharibəni BÖYÜK edə bilmədik. Özümüzdən sonra gələn nəslin çiyninə qisas yükü qoyub, döyüş meydanını tərk etdik. O nəsil isə Sənin, Mənim, Onun oğullarıdır. Bu isə o deməkdir ki, ya nəvələrimiz atasız böyüyəcək, ya da o nəvələr heç doğulmayacaq! Elə bu müharibə də çox subay oğullarımızı nakam apardı, körpə balaları atasız, cavan gəlinləri dul qoydu. Oğul yolu gözləyən ağsaq-

qal atalar, ağbirçək analar yollara baxa-baxa qaldılar. Oğul dərdi ilə dünyalarını dəyişdilər. Əhmədpur İbrahim də sonuncu Qarabağ müharibəsində şəhid olan minlərlə soydaşlarımızdan biridir. Cavan ömür-gün yoldaşını, üç körpə balasını və bir də hələ həyata keçməyən arzularını taleyin ümidinə buraxıb əbədiyyətə qovuşdu. Almaz xanıma və balalarına Şəhid adını və qeyri-müəyyən bir gələcək qoyub, Tanrı dərgahına yollandı.

***German***







# MÜHARİBƏNIN AĞDAMDAN GÖRÜNƏN REALLIQLARI

Ağdam raket atəşinə ilk dəfə 1992-ci ilin fevral ayının 28-də - Xocalı müsibətindən iki gün sonra məruz qaldı. Hardasa «elektroset» tərəfdə bir evə düşən və onu yerlə yeksan edən «Qrad» tipli bu raket Ağdamın səs-küyünə bir az da vahimə qatdı. Amma bu vahimə Ağdamlıların qorxmasına deyil, ermənilərə qarşı nifrət və intiqam hisslərinin daha da alovlanmasına səbəb oldu... Sonra martın 3-də, 11-də, 13-də və ... Ağdam yenidən bombardman edildi. Eyni qurğudan atılan «Qrad» və «Kristal» tipli raketlərlə.

Ermənilər bu qurğunu və raketləri haradan aldılar və necə oldu ki, ondan Ağdama qarşı istifadə etməyə cürət etdilər? Axı «dünənə qədər» Ağdam adı gələndə, ağdamlıların səsi eşidiləndə ermənilər «girməyə deşik axtarırdılar». Birinci sualın cavabı asan və sadədir, Raket qurğusunu ermənilər iki gün əvvəl işğal və yerlə yeksan etdikləri Xocalı şəhərindən götürmüşdülər və ermənilər bu raket qurğularını rus hərbiçilərindən alırdılar. Onun işləmə qaydalarını da havadarları olan ruslara məxsus 366-cı motoatıcı alayın hərbçilərindən öyrəndilər. Qaldı ermənilərin həmin silahdan məhz ağdamlılara qarşı istifadə etməsi, bunun da obyektiv səbəbləri vardı. Birincisi - o dövrlərdə

Ağdam regionda (Qarabağ nəzərdə tutulur) ən ötə sözə, maddi, fiziki və siyasi gücə malik olan bir rayon idi. İkinci səbəb, ermənilərin ürəklərində ağdamlılara qarşı illərdən bəri yığılıb qalan kin idi. Digər səbəb,o dövrdə ölkəyə başçılıq edən Ayaz Mütəllibov və onun komandasının Moskvaya tabe olaraq ölkədə baş verənlərə biganə yanaşması idi. Bu səbəb Ağdamı və ağdamlıları Qarabağdakı olayların ağırlığının böyük bir hissəsini öz üzərinə götürməyə məcbur etmişdi. Başı vəzifə kürsüsünü qorumağa qarışmış Mütəllibovun Xocalıda baş verənlərdən bir həftə sonra xəbər tutması faciə, Xocalıda törədilənlər isə müsibət idi. Və o müsibətin qarşısının alınmasına edilən cəhd, baş verənlərdən sonra ölənlərin, yaralananların, əsir düşənlərin ermənilərdən alınması, Xocalı sakinlərinin və Xocalı rayon başçılarının yerləşdirilməsi yenə də ağdamlıların üzərinə düşdü. Həmin gecə (1992-ci ilin 25-dən 26-a keçən gecə) Allahverdi Bağırovun, Şirin Mirzəyevin,Ala Yaqubun və Fred Asifin döyüşçüləri olmasaydı Xocalının o vaxtkı icra başçısı və onun yaxın ətrafından başqa yəqin ki, hamı erməni genosidinin qurbanı olacaqdı. Başçı və onun qohum-əqrəbaları, Xocalının məsul rəhbər işçiləri Xocalını iki həftə əvvəltərk etmişdilər. Xocalıda baş verənlərin digər səbəbləri də vardı. Üç ay əvvəl - 1991-ci ilin noyabr ayının 20-də Qarakənd kəndi üzərində içərisində görkəmli dövlət məmurlarının olduğu vertolyot ermənilər tərəfindən vurularkən Azərbaycan rəhbərliyi buna tutarlı reaksiya versəydi, yəqin ki, ermənilər Xocalıda

elə bir dəhşətli genosidi həyata keçirməyə cürət etməzdilər.

Ermənilərin ruslarla birləşərək Xocalıda törətdikləri, dalınca küllü - Qarabağın ümid yerinə çevrilmiş Ağdamı bombardman etmələri ağdamlıların gözlərini qorxutmağa yönəlmiş siyasi və taktiki bir addım idi. Bölgədə müharibə gedirdi və ağdamlılar da digər rayonların sakinlərindən, ələlxüsus da kənarda seyrçi mövqe tutan Moskvapərəst respublika rəhbərlərindən fərqli olaraq baş verənlərin reallığını dərk edir və müharibənin qanunlarına uyğun hərəkət etməyə çalışırdılar. Yuxarıda qeyd olunduğu kimi Xocalı müsibətinin törədildiyi saatlardan etibarən AXC Ağdam rayon şöbəsinin sədri Allahverdi Bağırov təkbaşına ermənilərlə danışığa girərək üç gün ərzində qətlə yetirilənlərin 613 nəfərini (halbuki onların sayı xeyli artıq idi), əsir götürülən yüzlərlə dinc Xocalı sakinini ermənilərdən almağa müvəffəq oldu. Qətlə yetirildikləri yerdən çətinliklə çıxarılan körpələr, qadınlar, qocalar və digər dinc Xocalı sakinləri Ağdama gətirilərək Məsciddə yuyulub, kəfənlənərək ağdamlıların çiyinlərində Ağdamın Uzundərə ərazisində salınmış sayca Allah bilir neçənci Şəhidlər xiyabanında urvatla son mənzilə yola salındı.

Ağdama ikinci raket «yağışı» üç gün sonra - mart ayının 3-də yağdı. Ağdamlılaryenə də məğrurluqlarını qoruyub, bu zərbələri də mətanətlə qarşıladılar, amma həmin gündən sonra Ağdamın özünümüdafiə batalyonlarına könüllülərin axını başlandı. Ağdamlılar qisas hissi ilə alışıb-yanırdılar.



*Azərbaycanının Milli Qəhrəmanı Şirin Mirzəyev*

1992-ci ilin mart ayının 4-də Azərbaycanın ilk milli batalyonunun yaradıcısı, böyük sərkərdə Azərbaycanının Milli Qəhrəmanı **Şirin Mirzəyevin** batalyonu Mardakert rayonunun ermənilər yaşayan Qazançı kəndi üzərinə iri miqyaslı hücuma keçdi. Bir neçə saat davam edən gərgin döyüşdə cəsur komandirin bacarığı və taktikası sayəsində Qazançı kəndi yerlə yeksan edildi və Xocalı müsibətinin qisası qismən də olsa alındı. Ermənilər tərəfdən yüzlərlə insan həlak oldu, yüzə yaxın insan isə əsir düşdü. Peşəkar zabit olan Şirin Mirzəyev isə həmin gün iki döyüşçüsünü itirmişdi. Qazançı əməliyyatı erməniləri bərk qorxuya salmışdı. Bu əməliyyat müharibənin gedişində çox böyük dönüş yarada bilərdi. Respublika rəhbərliyindən kömək olsaydı, döyüşçülərimiz silah-sursatla lazımi qaydada təmin olunsaydılar...

Ala Yaqub. Əsil adı **Yaqub Rzayev** olan bu cəsur insan da digər ağdamlı komandirlər kimi ilk gündən hadisələrin mərkəzində idi, oğlanları ilə birlikdə. Dözümünə, iradəsinə, əzminə, mətanətinə və igidliyinə görə bu insana Qatır Məmməd də deyirdilər. Qatır Məmməd 1918-ci ildə qurulmuş Demokratik Azərbaycan Respublikasının devrilib,


*Botalyon komandiri Yaqub Rzayev*

yerində şura hökuməti qurulması üçün çalışan məşhur bolşevik-inqilabçı olub. Əgər o Qatır Məmməd ötən əsrin əvvəllərində sovet quruculuğu dövründə rusların bolşevik ideyaları uğrunda mübarizə aparmışdısa, bu «Qatır Məmməd» əsrin sonunda təcavüzə məruz qalan doğma Vətənini ermənilərdən və Rus imperiyasından qorumaq üçün döyüşlərə atılmışdı. Ermənilərin Əsgəran tərəfdən ola biləcək hər bir hücumunun qarşısını almaq üçün öz könüllü döyüşçüləri ilə dağ kimi dayanan cəsur komandir yeri gəldikcə əks-hücuma da keçir və ermənilərə güclü təlafat verirdi. Belə hücumların birində batalyonu ilə birlikdə Əsgərana girməyə müvəffəq olmuş Yaqub Rzayev o vaxtkı Müdafiə nazirliyində məsul şəxs ilə radsiya vasitəsilə əlaqə saxlamış, vəziyyəti ona məruzə etdikdən sonra tutduqları mövqelərin qorunub saxlanması üçün kömək göndərməsini xahiş etmişdi. Əks təqdirdə onun döyüşçüləri mühasirəyə düşə bilərdilər. O məsul şəxsin cavabı qısa və kəskin olmuşdu:

– “Sənə kim icazə verib Əsgərana girməyə? Tez qayıdın Ağdama!”

Qan bahasına alınmış tarixi torpaqları kimlərinsə xəyanətkar göstərişi ilə tərk etmək məcburiyyətində

qalan komandir üçün bu əmri icra etmək istənilən olmasa da, o, bunu etməli idi. Çünki kömək gəlməsə batalyon mühasirəyə düşə bilərdi. Çox böyük ruh yüksəkliyi ilə hücuma keçən və daşnak yuvası Əsgəranı qan bahasına ələ keçirən igid döyüşçülərimiz bu qələbənin sevincini bayram etməyə macal tapmamış oranı tərk etməli oldular.

Məlumat üçün deyim ki, Ala Yaqubun oğlu **Canpolad Rzayev** (ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı) 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə çox böyük qəhrəmanlıq göstərdi, Erməni təcavüzünə məruz qalan Xocalı əhalisinin təxminən yüz otuz nəfərini öz tankının üstündə ölüm zonasından çıxararaq Ağdama gətirdi. Özü isə yenidən döyüşə atılanda düşmən snayperinin atdığı gülləyə tuş gəldi.



*Azərbaycanının Milli Qəhrəmanı Canpolad Rzayev*

Azərbaycanın Milli Qəhrəmanı **Fred Asif** - kişilik meyarı, qeyrət nümunəsi, qəhrəmanhq rəmzi. Asif Məhərrəmov çoxlarından fərqli bir ömür yaşadı, çoxlarına bənzəməyən bir əqidə və zəka sahibi oldu. Fərqli düşüncə tərzi ona çoxları kimi adi bir həyat yaşamağa imkan vermədi. Ömrünü sıxıntı və məhrumiyyətlər içərisində keçirsə də, nə əyilmədi, nə də sınmadı. Tanıyanların hər biri tərəfdən sevilib sayılsa



*Azərbaycanının Milli Qəhrəmanı Asif Məhərrəmov*

da bundan istifadə etmədi.

– “Vətəni qorumaq üçün hansısa partiyanın üzvü olmaq vacib deyil”- deyən Asif heç bir siyasi cərəyana qoşulmadı. Ağdamın imarət stadionunda mərd, igid, döyüşkən oğulları bir yerə toplayaraq “Haqq cəbhəsi”ni yaratdı. Sonralar özünümüdafiə batalyonuna çevriləcək bu dəstəyə təkcə Ağdamdan deyil, Azərbaycanın hər yerindən və keçmiş Sovetlər Birliyinin müxtəlif respublikalarından da cəngavər oğullar axışmağa başladı. Digər batalyonlarda olduğu kimi bu batalyonun da döyüşçüləri hər döyüşə böyük ruh yüksəkliyi ilə atılır və erməniləri doğma torpaqlarımızdan qovub çıxaracaqlarına inanırdılar. Döyüşdən-döyüşə inanılmaz qələbələrə imza atan igid döyüşçülərimiz cəsur komandiri Fred Asifin iştirakı ilə keçirilən əməliyyatların hamısı uğurla başa çatırdı. Asifin hamıdan irəlidə getdiyini görən döyüşçülər ölümü saya salmadan komandirin arxasınca irəliyə - düşmən üstünə şığıyırdılar. Asif Məhərrəmovun döyüşçülərindən dörd nəfəri «İgidliyə görə» medalı, yeddi nəfəri «Azəbaycan bayrağı» ordeni, iki nəfəri isə «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına layiq görülmüşdü. Qəhrəman adına layiq görülənlərdən biri də igid komandirin özü idi. Lakin dünya

malında gözü olmayan və tərifdən zəhləsi qaçan Asif Məhhərəmov bu addan imtina etdi. Səbəb isə konkret idi:

– Qəhrəmanın vətənində erməni at oynatmaz. Ölkənin xeyli hissəsi işğal olunub, insanlar əsir düşüb. Mən yaxama medal vurub, - qəhrəmanam - deyə öyünə bilmərəm.Müharibəni qələbə ilə başa vurarıq, bayrağımızı İrəvana sancarıq, ondan sonra qəhrəman məsələsinə baxarıq.

Bu cür igid komandirləri, cəsur döyüşçüləri olan bir ölkə necə oldu ki, düşmənin öhdəsindən gələ bilməyib, məğlubiyyətə uğradı? Səbəbləri:

1. Vahid komandanlığın olmaması;
2. Dövlət rəhbərlərinin seyrçi mövqe tutması;
3. Müxtəlif liderlərin başına yığışan adamlarla partiya yaradaraq cəbhəyə yollanmaq əvəzinə hakimiyyət davasına atılması;
4. Müharibənin Moskvadan idarə olunması və Azərbaycanın o vaxtkı rəhbərlərinin Moskvaya itaətlə qulluq etməsi. Halbuki Azərbaycan artıq müstəqil dövlət idi;
5. Rusiyanm ermənilərə havadarlıq etməsi və onları silah-sursatla təmin etməsi;

Başqa səbəblər də vardı...

Ermənistan ərazisindən sonuncu Azərbaycanlının qovulmasından iyirmi yeddi, Qarabağın işğalından iyirmi iki, atəşkəs elan olunmasından isə iyirmi bir keçməsinə baxmayaraq, hələ də baş verənlərin araşdırılması, torpaqların geri alınması is tiqamətində heç

bir iş aparılmır, heç buna cəhd də göstərilmir. Bəs yuxarıda adları çəkilən cəsur komandirlər və onların döyüşçülərinin aqibətləri necə oldu?



*Azərbaycanının Milli Qəhrəmanı Allahverdi Bağırov*

12 iyul 1992-ci il. Bir neçə kəndin erməni qəsbkarlarından azad olunması ilə nəticələnən iri miqyaslı hücum uğurla həyata keçirildi. Hücuma rəhbərlik edən Azərbaycanın Milli Qəhrəmanı **Allahverdi Bağırov** Naxçıvanik kəndində qəlib döyüşçüləri təbrik etdi və:

– "Sabah Əsgəranda görüşərik!"- deyib, sürücüsüƏmir ilə birlikdə «Niva» markalı maşınına əyləşib Ağdama yollandı. Amma heç iyirmi dəqiqə keçməmiş gəldiyi yolla geri qayıdan Allahverdi Bağırov tank əleyhinə minaya düşüb, sürücüsü ilə birlikdə parça-parça oldu. O minanı ora erməni basdırmışdı? Mən inanmıram. Araşdıran olmadı... Ölümündən səkkiz ay sonra Azərbaycan Respublikasının prezidenti Ə. Elçibəyin fərmanı ilə Allahverdi Bağırova «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adı verildi. Amma Allahverdi Bağırov elə bu adsız da sonuncu Qarabağ müharibəsinin ən böyük qəhrəmanı idi.

18 iyun 1992-ci il. Həmin gün sonuncu Qarabağ müharibəsinin ən böyük qəhrəmanlarından biri, ilk milli batalyonun yaradıcısı, peşəkar hərbçi Şirin

Mirzəyev də uğurlu döyüş əməliyyatından qayıdarkən eyni ssenari ilə aradan götürüldü. Beş nəfər silahdaşı ilə ön cəbhədən qayıdan cəsur komandir «Qaz 69» markalı avtomobildə cəbhənin ermənidən uzaq bir yerində, özü də getdiyi yolla qayıdarkən minaya düşdü. Altı nəfərdən biri ölümdən qurtula bilir, o da yarımcan. O minanın da orada necə peyda olmasını araşdıran olmadı. Şirin Mirzəyevin cəsədinin qalıqları Bakıdakı Şəhidlər Xiyabanında dəfn olundu və ölümündən sonra ona da «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adı verildi.

Ala Yaqub, Qatır Məmməd, Yaqub Rzayev. Bu insanların aqibəti daha acınacaqlı oldu. Oğulları ilə çiyin-çiyinə vuruşan, onlardan birini Vətənə qurban verən, öz gücünə batalyon toplayan, həmin batalyonu öz igidliyi, rəşadəti, cəsarəti və bacarığı hesabına hərtərəfli təmin edən və döyüşdən döyüşə aparan bu cəsur komandir o vaxtlar «qan-qan» deyən «cəbhəçi» nazirin qəzəbinə tuş gəldi və həbs edildi. Bir neçə aydan sonra 15.07.1993-cü ildəAğdamın işğalından səkkiz gün əvvəl dustaqxanada qətlə yetirildi. Tunc iradəyə, dəmir sağlamlığa malik olan bu insan guya ürək çatışmazlığından vəfat elədi. Saysız-hesabsız qəhrəmanlıqlar göstərən, ermənilərə bəlkə də hamıdan çox tələfat verən bu igid insan bu dünyadan çox hörmətsiz və xüsusi təmtəraq olmadan köçdü. Heç bir fəxri ada da layiq görülmədi. Amma xalqın yaddaşında elə qəhrəman kimi qaldı.

Fred Asif. Bütün ömrünü keşməkeşlərlə, əzab-

əziyyətlərlə keçirən bu nurlu, haqq-ədalət tərəfdarı olan vətənpərvər insanı aradan götürmək istəsələr də, bütün cəhdlər uğursuz alındı. Ancaq Allah Asifi də ağdamlılara çox gördü. Sağlamlığında ciddi problemlər yaranan Fred Asif dəfələrlə xəstəxanada yatmalı oldu, Fred Asif Ağdamın işğalından təxminən on bir ay sonra Vətəndən uzaqlarda - Rusiyanın Yalta şəhərində qırx iki yaşında vəfat elədi. Sağlığında «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adından imtina edən Asif Yusif oğlu Məhərrəmovun məzarı II Fəxri xiyabandadır. Layiq olduğu Milli Qəhrəman ulduzu və vəsiqəsi ölümündən sonra anası Məhluqə xalaya təqdim olunub.

Hə, bax belə. Bu da müharibənin Ağdamdan görünən reallıqları. Hələ Ağdamın altı mindən artıq şəhidlərini, gəlmələrin və ya Bakıdan göndərilənlərin biganəliyi, satqınlığı və xəyanəti nəticəsində əldən gedən yüksəklikləri, strateji mövqeləri, kəndləri, şəhərləri demirəm. Araşdırılmalıdır, hamısı araşdırmalıdır! Amma nə vaxt və kim tərəfindən?!...

***German***

# ERMƏNİ "DAŞNAK"LARI XALQIMIZA QARŞI ELAN OLUNMAMIŞ MÜHARİBƏYƏ BAŞLADILAR

Mənfur qonşularımız – erməni "daşnak"ları xalqımıza qarşı elan olunmamış müharibəyə başladılar. Zaman-zaman Azərbaycanın torpaqları hesabına öz ərazisini genişləndirən riyakar ermənilər "Böyük Ermənistan" yaratmaq iddiasında idilər. Artıq 1988-ci ildə soydaşlarımızı Qərbi Azərbaycandan, öz yurd-yuvalarından çıxarmağa başladılar. Düşmən yurd, yerlərimizi top-tüfəng və onları dəstəkləyən havadarlarının köməyi ilə işğal etdi. Haraya qalxıb, silaha sarılan oğullarımız müharibə meydanına atılıb, sinələrini xain, yağı güllərinə sipər edirdilər. Vətənin düşmən əlinə keçmiş torpaqlarını geriyə qaytarmağa, erməniləri torpağımızdan qovub çıxartmaq üçün canlarını qurban verib, fəda edirdilər. Belə qanlı-qadalı günlərdə hər bir Azərbaycan vətəndaşı kimi İbrahim də silaha sarılaraq Vətənin, torpağın müdafiəsinə qalxdı. Uzun müddət ayrı-ayrı özünümüdafiə batalyonlarında vuruşdu. O, 1992-ci ildən isə Azərbaycanın Milli Qəhrəmanı "Fred" Asifin könüllülər batalyonunda vuruşub. Çətin döyüşlərdən igidliklə çıxan, komandirin bütün tapşırıqlarını mərdliklə yerinə yetirən İbrahim öz qoçaqlığına görə də digər döyüşçü yoldaşlarından seçilirdi.Bütün döyüşçü dost-

ları onun xətrini çox istəyirdilər, çünki İbrahim dost kimi də etibarlı, səmimi dost idi. O, həmdə çox qayğıkeş insan idi.Bu xüsusiyyəti onu ətrafına çox sevdirirdi.

Yurdunu,torpağını öz canından da artıq sevən İbrahimin son döyüş yeri 1992-ci il iyunun 12-də Naxçıvanik olub. Burada o, igidliyinə, qəhrəmanlığına görə ən yüksək ada"Şəhid"adına layiq görüldü Allah tərəfindən.

Bir xasiyyətnamə var Əhmədpur İbrahimdən müharibə xatirəsi kimi. Yalnız bir xasiyyətnamə... Xatirə kimi bir şəkli də qalmadı. Daha doğrusu olmadı xatirə kimi yadigar saxlanılacaq bir şəkli. Bir şəkil belə çəkdirməmiş söyləmişdi ki, Vətənimin səması qara buludlardan azad olsun, torpaqlarımızı bu mənfur düşmənlərdən təmizləyək, şəkil çəkdirməyə həvəsimiz də, vaxtımız da olacaq. Mənim torpağım indi yadelli işğalçılardadır, ürəyim necə açılsın?!Nə deyim şəkil çəkdirim? Torpaqlarımız qan ağlayır.

Şəhid Əhmədpur İbrahimin bu döyüş xasiyyətnaməsində belə yazılıb:

"Əhmədpur İbrahim Səfər oğlu Qarabağda məlum hadisələr başlandığı ilk gündən vətənimizin başqa qeyrətli oğlanları kimi torpaqlarımızın erməni təcavüzündən azad olunması uğrunda aparılan mübarizəyə qoşulmuşdu. Ağdamda Fred Asifin başçılıq etdiyi könüllülər batalyonunda birincilər sırasında oldu. Tariximizin ən acı səhifələrindən biri olan Xocalı faciəsi zamanı sağ qalmış soydaşlarımızı düşmən

pəncəsindən qoparmaq məqsədi ilə Fred Asifin dəstəsində Əhmədpur İbrahim 26-27 fevral 1992-cı il tarixində özünü xocalılara yetirdi. Bundan sonra Əhmədpur İbrahim 6 mart tarixində Əsgəran əməliyyatı zamanı özünü bir döyüşçü kimi göstərdi. Əl qumbarası ilə bir neçə erməni quldurunu məhv edərək, hissəyə iki düşmən avtomatını gətirmişdir. 10 may tarixində Aranzəmin, Pircamal uğrunda gedən döyüşdə Əhmədpur İbrahim Pir yüksəkliyinə ilk dəfə çıxanlardan biri olmuşdu. Bu döyüşdə o yaralı döyüş yoldaşının köməyinə çataraq onu döyüş meydanından çıxarmağa müvəffəq olmuşdu. 15 may 1992- ci il tarixində Abdalgülablı kəndlərinin müdafiəsi zamanı Əhmədpur İbrahim döyüş yoldaşları ilə birlikdə düşmənin hərbi sürsatla dolu bir avtomaşınını ələ keçirməyə müvəffəq oldu. Daha sonra hissəmizin tarixinə qızıl hərflərlə yazılmış Naxçıvanik, Qaraqaya əməliyyatı, 12 iyun 1992-ci il tarixində hücum zamanı döyüş yoldaşları ilə birlikdə Qızılcabel yüksəkliyini ələ keçirərək, hücumu daha da genişləndirdilər. Artıq irəlidə Naxçıvanik kəndi görünürdü. Elə bu zaman güclü partlayış zamanı Əhmədov Şükür yaralandı. Əhmədpur İbrahim özünü yoldaşının üstünə ataraq onu güllə yağışının altından, döyüş meydanından çıxartdı.

Lakin, səhərisi gün yəni, 13 iyun tarixində, döyüşdə özü düşmən gülləsindən Şəhid oldu". Bu xasiyyətnaməni 859 saylı hərbi hissənin komandiri, baş leytenant E.Məmmədov Şəhid Əhmədpur İbrahimin ailəsinə

təqdim etmişdir.

Şəhidlərimiz haqqında nə qədər deyilsə də, yazılsa da azdır. Şəhidlərimizin xatirəsi xalqımızın qəlbində əbədidir.

Müharibə çox cavan ailələri başsız qoyub... Çox uşaqlar atasız-anasız qalıb, insanlar yaxınlarını, əzizlərini itirib.Müharibəailələrə faciəgətirdi, dəhşət gətirdi. Bu dərdi, qan-qadanı görən zaman gözlərimizin qanlı yaşı ürəyimizə axıb. Amma "Vətən sağ olsun" deyirik. Doğma torpaqlarımızın azadlığı üçün hər birimiz gözümüzü qırpmadan canımızı qurban verməyə hazırıq. Bu müharibə kimə lazım idi? Kimə? Bu bəlanı kim gətirdi xalqımızın başına? Tanrım cəzasını verəcəkdir torpağımızda gözüolanlara, elimizi-obamızı pərişan edib, yurd-yuvasından didərgin salan, əzizlərinin ömrünə, həyatına qəsd edənlərə.

Şəhidlərimiz haqqında nə qədər deyilsədə, yazılsa da azdır. Şəhidlərimizin xatirəsi xalqımızın qəlbində hər zaman yaşayacaqdır. Şəhid ucalığı əbədidir. Ağdamda İbrahimin oxuduğu orta məktəbə və yaşadığı küçəyəonun adını vermişdilər .

Şəhid İbrahimin Vətən yolunda şəhid olmasından 23 il keçir. Şəhid İbrahimin və onun kimi yüzlərlə Vətən yolunda şəhid olan igidlərin əziz xatirəsi önündə baş əyirik, çünki onlar ölmədilər, qəlbimizdə yaşayırlar və biz onları yaşadacağıq hər zaman. Ey Şəhidlər, siz öz ölümünüzlə mərdlik, cəsurluq təcəssümünü hafizələrə yazaraq, tarixləşdiniz, əbədiyyətə qovuşdunuz!

Başınızı hər zaman uca tutun şəhid anaları, bacılıarı, qadınları,övladları! Çünki siz Vətən yolunda, torpaqlarımızın toxunulmazlığı yolunda, Azərbaycanımızın var olması, düşmənlərə boyun əyməməsi üçün, yadelillərin,Vətənimizə xain baxanların gözünün oyulması üçün şəhid vermisiniz! Əgər lazım olsa yenə verərsiniz. Şəhidlik uca zirvədir, əl çatmaz ona!



***"BU TORPAQ UĞRUNDA ÖLMƏYƏ DƏYƏR. CANIMI VERƏRƏM, TORPAĞIMI YOX. ANAM , ÖVLADLARIM, ÖMÜR-GÜN YOLDAŞIM ALMAZ MƏNİ BAĞIŞLASIN. VƏTƏNİMSİZ QALA BİLMƏRƏM" – DEYİB ƏHMƏDPUR İBRAHİM.***



Zaman ötür, fəsillər dəyişir, illər əsrlərə çevrilərək tarixə dönür. Zamanın axarında çox tarixi hadisələr baş verir. Elə tarixi hadisələr var ki, müəyyən dövrdən sonra unudulur. Lakin elə tarixi hadisələr də var ki, heç vaxt unudulmur. Nəsillər bir-birini əvəz etdikcə bu tarixi gün daha çox xatırlanır, yaddaşalara hopur, insanları ali bir hissə yaxınlaşdırır. Bu ali hiss müqəddəs və şərəfli olan şəhidlik zirvəsidir. Çünki şəhidlər Vətənin, millətin yolunda şüurlu surətdə canlarını fəda edən insanlardırlar. Bu cür insanlar yüksək əxlaqi keyfiyyətə malik olmaqla, ürəklərində Yaradana, Vətənə, millətə sevgisi oldugu üçün şəhadət mərtəbəsinə ucalırlar. Allahın insanlara göndərdiyi müqəddəs "Qurani-Kərim"də buyurulur:- "Şəhidlərə ölü deməyin, onlar diridirlər və Allahın nemətləri ilə faydalanırlar, ancaq siz bunu bilmirsiniz". Şəhidlik ölümlərin ən şərəflisidir. Bu gün öz vətəninə, xalqına bağlı olan hər kəs unutmamalıdır ki, işgal edilmiş Qarabağ torpaqlarımız - Laçın, Kəlbəcər, Ağdam,

Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Şuşa, Xankəndi, Ağdərə, Xocavənd rayonları düşmən tapdağı altındadır. Müstəqil Azərbaycanımızın torpaqlarına göz dikən düşmənlər bilməlidirlər ki, xalqımızın igid övladları, qüdrətli milli ordumuz xalqla birlikdə ayağa qalxıb, Ali baş komandanını rəhbərliyi altında öz torpaqlarını azad edəcək, müqəddəs şəhidlərin ruhları qarşısında öz vicdan borclarını verməklə zəfər marşını çalacaqlar. O gün çox uzağda deyil.



*Dünya ağ dəftərə bənzəyir, hər kəs öz yaşadığı ömürlə bu dəftərə "avtoqraf" qoyaraq gedir.*

*Ernest Heminquey*



# Şəhid Əhmədpur İbrahimin həyat amalını həyat yoldaşı Almaz xanım davam etdirir

## BİZ AĞDAMA QAYIDACAYIQ




***Beynəlxalq Mətbuat Mərkəzində Şəhid Ailələrinə Sosial Dəstək İctimai Birliyinin təşkilatçılığı ilə Ağdamın işğal gününə həsr olunmuş anım tədbiri keçirilmişdir.***

Tədbirin aparıcısı şair-jurnalist Rauf İlyasoğlu 22 il əvvəl alınmaz qala olan Ağdamın erməni quldurları tərəfindən işğal olunması səbəblərindən danışmış və vətənimizin azadlığı, ərazi bütövlüyü uğrunda şəhid

olmuş soydaşlarımızın xatirəsi bir dəqiqəlik, sükutla yad edilmişdir. Tədbir iştirakçıları Şəhid Ailələrinə Sosial Dəstək İctimai Birliyinin sifarişi ilə «Xəyallarımın Ağdamı» qısametrajlı filmə ürəkağrısı ilə tamaşa etmişlər. İştirakçılar erməni faşistləri tərəfindən dağıdılmış şəhərin görüşündən təsirlənmişlər.

Şəhid Ailələrinə Sosial Dəstək İctimai Birliyinin sədri, şəhid ailəsi **Almaz Zeynalova** tədbir iştirakçılarına, şəhid ailələrinə, media nümayəndələrinə, xüsusilə Ağdam Rayon İcra Hakimiyyətinin rəhbərliyinə, ərazi nümayəndəliklərinə göstərdikləri diqqət və qayğıya görə təşəkkürünü bildirmişdir.

Almaz Zeynalova xüsusilə vurğulamışdır ki, ölkə başçısı cənab İlham Əliyev tərəfindən müharibə əlillərin və şəhid ailələrinin sosial vəziyyəti daha da yaxşılaşdırılır, onlar mənzillə, pulsuz avtomobillə təmin olunurlar.

Qarabağ müharibəsi illərində Ağdam Rayon Mərkəzi Xəstəxanasının baş həkim işləmiş, Mahrızlı hospitalının yaradıcısı, ATU-nun dosenti, Azərbaycanın əməkdar həkimi Taryel Eyvazov 6 mindən çox şəhid vermiş Ağdamın cəngavər igid oğullarından söhbət açmışdır. T.Eyvazov yeni təkliflər irəli sürərək hər zaman vətənimizin müdafiəsinə hazır olduğunu bildirmişdir.

Milli Qəhrəman Fred Asif İnkişaf Fondunun sədri, Qarabağ Müharibəsi veteranı Ədalət Məhərrəmov cəöhə xatirələrindən söhbət açmışdır.

DAMM-in birinci vitse-prezidenti, Sabitlik və İnkişaf Mərkəzinin sədri Rasim Məmmədovun vətən-

pərvər ruhlu çıxışı alqışlarla qarşılandı.

Azərbaycan Qadınlar Cəmiyyətinin sədri Bahar Qasımova 75 min qadını birləşdirən cəmiyyətin adından vətən uğrunda, torpaqlarımızın müdafiəsində igidliklə vuruşaraq şəhid olmuş soydaşlarımızın ailə üzvlərinə dərin hüznlə başsağlığı vermişdir.

Qarabağ müharibəsi veteranı, jurnalist, Qazilər portalının təsisçisi Rey Kərimoğlu, Azadlıq Hərəkatçıları İctimai Birliyinin sədri, alovlu vətənpərvər Təhmasib Novruzov, batalyon komandiri olmuş Qələndər İsmayılov, Türkiyənin Anadolu Dövlət Universitetinin Azərbaycan üzrə rəhbəri Azər Hətəmov, Ağdam Rayon Təhsil Şöbəsinin metodisti Akif Hüseynli, rayon icra hakimiyyətinin ərazi üzrə nümayəndələri İldırım Kərimov, Həsən Mirzəlioğlu, Qarabağ müharibəsi əlili Rza Səfərli, Paraolimpika üzrə Dünya və Avropa çempionu (Taekvando üzrə) Aynur Məmmədli və başqaları vətənpərvərlik ruhunda çıxış etmişlər.

Tədbirin sonunda Almaz Zeynalova əminliklə bildirmişdir ki, dövlətimizin düzgün siyasəti və ordumuzun günü-gündən güclənməsi nəticəsində işğal olunmuş torpaqlarımız tezliklə yağı düşmənlərdən azad olunacaq. Qarabağda doğma Ağdamda yenə də «Qarabağ şikəstəsi» səslənəcək, bayrağımız ən uca zirvələrdə dalğalanacaqdır.

***Rauf Allahverdiyev,***
*«Respublika» qəzeti*



Əhmədpur İbrahimin həyat amalını, vətən sevgisininin təbliğini bu gün həyat yoldaşı Zeynalova Almaz Mütəllim qızıdavam etdirir. Almaz xanım 1962-ci ildə Ağdam rayonunda anadan olub. Almaz xanım 1984-cü ildə SSRİ-nin 50 illiyi adına Stepanakert Pedaqoji İnstitutunun filologiya fakültəsini bitirib. İlk əmək fəaliyyətinə doğulduğu Ağdam rayonunda "Qarabağ" qəzetində makinaçı kimi başlasa da, jurnalistikaya olan böyük həvəsi sonradan onun bu sənətə bağlanmasına rəvac vermişdir. Ağdam erməni quldurları tərəfindən zəbt olunduqdan sonra Bakı şəhərində məskunlaşmalı olan Almaz xanım iki il bu qəzetdə çalışıb. Bir müddət sonra isə Müdafiə Nazirliyinin "Azərbaycan Ordusu" qəzetində fəaliyyət

göstərib. Bu qəzetin xətti ilə cəbhə bölgələrində, çadır şəhərciklərində dəfələrlə olub. Kəsərli yazılar yazıb. Gördüyü işlər, çalışqanlığı rəhbərlik tərəfindən bir çox diplom və fəxri fərmanlara layiq görülüb.Almaz xanım Zeynalova həmçininAzərbaycan Uşaq Fondunun Nəsimi rayon şöbəsinin sədri vəzifəsində də çalışmış və uşaqların mənəvi dünyasının formalaşmasına, onların Vətənpərvər ruhda tərbiyyə almasına, maariflənməsinə dair əhəmiyyətli işlər görmüşdür.

Hal-hazırda Respublika "Şəhid Ailələrinə Sosial Dəstək" İctimai Birliyinin sədridir. Həyatda mübariz qadın, ailədə qayğıkeş anadır. Üç oğlu var. Övladlarını atasız, lakin ataları İbrahim kimi mərd və qeyrətli böyüdən Almaz xanım özü kimi şəhid ailələrinin dərdlərinə, problemlərinə şərik olaraq, dəstək olur. Ürəyi Vətənlə döyünən bu ziyalı xanım cəmiyyətə xeyirxah işlərlə öz töhfəsini verir. Azərbaycan ictimai mühitində Almaz Zeynalova cəmiyyət və vətəndaşların rifahının yaxşılaşdırılması yönümündə dəyərli layihələrdə iştirak edir.

Almaz xanımdan həyat yoldaşı İbrahim haqqında xatirələrini soruşmaq mənə çox ağır idi. Hələ kitabı yazmağa başlamazdan əvvəl İbrahim barəsində Almaz xanıma sual verən zaman, xatirələrini soruşan zaman onun gözlərinin yaşının sel kimi axdığını, üzünə kədər çökdüyünü görmüşdüm. Demək olar ki, İbrahim haqqında cəbhə yoldaşlarının, yaxınlarının düşüncə və xatirələrini yazıb toplamışdım. Amma Almaz xanıma yaxınlaşıb söyləyə bilmirdim ki, artıq kitabın tam

hazır olması üçün son yazı -onun xatirələri qalıb. Bir neçə gün zəng edib hal-əhvalını soruşdum. Nəhayət özümdə güc toplayıb:

– "Almaz xanım bilirəm çox çətindir sizə. Yaddaşınızda olanları, xatirələri xatırlamaq, danışmaq sizi üzəcək. Keçən günlərin yaddaşında qalan,olub keçənləri göz önünə gətirmək ağır olacaq sizin üçün, amma sizin xatirələrinizi yazmadan kitabı nəşriyyata təhvil verə bilmərəm" – dedim. Almaz xanım başını aşağı salıb, bir xeyli danışmadı. Təbii göz yaşları ilk xatirəsini artıq danışmağa başlamışdı. Səbirlə gözlədim. Çətin idi gənc ikən sevdiyi həyat yoldaşını itirmək və bu itkini dilə gətirmək. Bir söz demədim, susdum. Gözləyirdim ki, Almaz xanım sakitləşsin. Bir xeyli zamandan sonra Almaz xanım:

– "İradə xanım, mənim üçün çox çətindir bu mövzuda danışmaq. Gözlərimin önündə kino lenti kimi keçir olub keçənlər. İbrahimi itirməklə həyatımın mənasını, qayəsini itirdim. Övladlarım üçün yaşayıram. Onları xoşbəxt görmək istəyirəm" – dedi.

1981-ci il ömrümün ən gözəl çağları idi. İbrahimlə ailə qurmuşduq. Təbii bu ailə sevgimiz üzərində qurulub, təməli möhkəm idi.

İlk tanışlıq zamanını belə xatırlayıram. Pedaqoji İnstitutun filologiya fakültəsindən məktəbə təcrübəyə gedirdim. Rəhmətliyi məktəbə yaxın yerdə gördüm. Məktəbdən qardaşımgilə baş çəkməyə gedən zaman da qardaşım yaşadığı məhəllədə gördüm. O, məni çoxdan izləyirmiş, mən fərqində olmamışammış. Be-

ləcə günlər keçirdi. Mən onu məktəbə yaxın küçədə və qardaşımgilin məhəlləsində görürdüm. Nəhayət o elçilərini göndərdi. Mənim də ailəmdə, onun da ailəsində bizim evlənməyimizə narazılıq var idi. Amma biz ikimizdə öz qərarımızı vermişdik ki, həyatımızı birlikdə quraq, ömürlük bağlanaq. Ailə qurduq. Ailə qurduqdan bir müddət sonra, İbrahim məni, vaxtılə gizlin-gizlin izlədiyini, yaxınlaşmağa həm çəkinib cürət edə bilmədiyini, həm də utandığını söyləyirdi. Saatlarla yağışın, günəşin altında mənim keçəcəyim küçənin bir dalanında durub gəlib keçməyimi gözləyirmiş. Axı o zamanlar sevən oğlan istəklisinə yaxınlaşıb bir söz deməzdi, sevdiyi qıza elçi göndərərdi. Sevgisini nişan üzüyünü sevdiyinin barmağına taxmaqla sübut edərdi. İbrahim məni necə izlədiyini və həmin anda keçirdiyi həyəcan hisslərindən danışan zaman mən gülümsəyib deyərdim ki, mənim də gözüm səni axtarardı gizlin-gizlin. Bu bizim taleyimizdir, İbrahim. Tanrı bizi biri-birimizlə qarşılaşdırdı.

Çox gözəl günlər yaşadıq. Onunla bərabər keçirdiyim 11 il bütün həyatıma bərabərdir, bir günü ömrə bərabər idi. Övladlarını çox sevərdi. Mənimlə bərabər onların qayğısına qalardı. Mən yorulan zaman uşaqların yeməyinə, onların tərli paltarlarına diqqət edərdi. Gəzintiyə aparardı. Mənə həm ömür-gün yoldaşı idi, həm də dost idi. Mənim nazımı çox çəkərdi. Məndə öz növbəmdə ona çox qayğı göstərirdim, onun qəlbini heç bir səhvimlə qırmırdım. İndiki kimi yadımdadır. Yemək bişirib hazır olduqdan sonra süfrəyə gətir-

mirdim, gözləyirdim ki, İbrahim gəlsin birlikdə nahar və ya şam edək. Balacalar da onsuz süfrəyə əl uzatmazdılar. Çox xoşbəxt bir ailə həyatımız var idi. Müharibə başladı. Mənfur qonşuların işğalçı siyasəti minlərlə ailələri başsız, böyüksüz qoydu.

Mən çox dedim ki, İbrahim getmə, uşaqlarımız balacadırlar, sənə bir şey olar mən nə edərəm, necə edərəm. Rəhmətlik isə "Bu torpağın üzərində gəzə bilmərik, erməni quldurlarını torpaqlarımızdan qovmalıyıq. Mən qardaşlarımın döyüşə getməsinə şərait yarada bilmərəm. Böyük qardaşım nəslin ağsaqqalıdır. O birilərin də hərəsinin bir problemi var. Mən özüm gedəcəyəm. Mənə bir şey olarsa, Almaz, əzizim, narahat olma. Dövlət mənim uşaqlarıma məndən də yaxşı baxacaqdır" – dedi. Qəlbi, ürəyi Vətənlə döyünürdü. O, çox cəsur, qorxmaz idi. Həyat yoldaşım olduğu üçün demirəm, sözün əsil mənasında Vətənini, torpağını ürəkdən səvən,ona bağlı olan vətənpərvər idi. 1992-ci il mayın 4-də evə uşaqları görməyə gəlmişdi. Dedi ki, Almaz, uşaqları geyindir, bir şəkil çəkdirim onlarla. Mən razı olmadım, dedim ki, "Ay İbrahim, müharibə bitməyib, sən də hərbi geyimdə. Deyəcəklər ki, müharibə qurtarmayıb bunlar şəkil çəkdirirlər. Ayıbdır". Düzü, o da razılaşdı. Amma o, özü cəbhədə şəkil çəkdirməzdi, sevməzdi. Birdənə də olsun ön cəbhədən şəkli yoxdur. İnanın ki, o Şəhid olduqdan sonra özümü çox danladım, gərək övladları ilə şəkil çəkdirərdi, yadigar bir şəkli qalardı. Bunu özümə bağışlaya bilmirəm!...

Həmin günü oğlumuz Rövşənin ad günü idi. Qonaqlarım çox idi. Hamı ilə görüşüb, ön cəbhəyə təcili gedəcəyini söylədi və evdən məhləmizin həyətinə çıxdı. Bu an mən Rövşəni götürüb onun arxasınca qaçdım və ona “özünü qoru, balalarımız səni gözləyir, İbrahim, ehtiyatlı ol” – demək istədim. Yaxınlaşdım, sonuncu görüşdür kimi ürəyimə fikirlər gəldi. Bir söz deyə bilmədim. Boğazım qurumuşdu. Gözlərim yaşarmışdı. Axı, biz doyunca onu görə bilmədik. İbrahim mənə yaxınlaşıb - darıxma o mənfurları torpağımızdan tezliklə qovacağıq, hamı evinə yurduna dönəcək. Bir az səbirli olun. Rövşən əllərini atasına uzadıb onun qucağına getmək istədi. İbrahim tələsiridi. O, Rövşəni öpdü, üzünə sığal çəkdi, dönüb tələsik darvazadan çıxdı. Və bir daha dönmədi...

İyun 11-ə keçən gecə ürəyim çox narahat idi. Yuxu gördüm. Çox qarışıq yuxu idi. Gördüm düşmən tərəfindən güclü müqavimət var. Güllə səsləri çoxalır, qulaq batırıcı səviyyədə. Bizim yaşadığımız evə də Qrad düşür. Mən İbrahimi axtarıram, tapa bilmirəm. Amma birdən çox zəif səslə İbrahimin səsini eşidirəm “Almaz, uşaqlar”. Yuxudan ayıldım. Halım çox pis idi. Özümə gələ bilmirdim. Rəhmətlik anam tək qalmamağım üçün mənimlə qalırdı. Mənim bu narahatlığımı duyub, o da yuxudan ayıldı. Yata bilmədik. Elə bilki, reallıqda mənə hər şey əyan olmuşdu. Sabah saat 6 radələrində qapı döyüldü, Firdovsi idi. İbrahimin xəstəxanada yaralı olduğunu söylədi. Və dedi ki, İbrahim sizi arzulayır, sizi görmək istəyir. Biz Firdovsi ilə yola

düşdük.Ağır yaralandığı və çox qan itirdiyi üçün onun həyatını qurtara bilmədiklərini xəstəxanada həkimlər söylədilər. İbrahimi Şəhidlər xiyabanında dəfn etdilər. Həmin günümü xatırlamaq mənə çox ağırdır!.

Heç olmazsa onun məzarını ziyarət edib təskinlik tapırdım, sakitləşirdim. Ağdamın işğalından sonra dəli kimi olmuşdum. Həm torpağımın işğal olunması, həm sevdiyim həyat yoldaşımın məzarının orada qalması. Hər gün Bakıda Şəhidlər Xiyabanına gedirdim. Ağlayırdım, sakitləşirdim. Amma Şəhidlər Xiyabanına gələn qarayaylıqlı gəlinlərə qibtə edirdim. Çünki onların ziyarət edəcəkləri məzarlıq var.Mənin Şəhid İbrahimimin məzarı olan torpaqlar düşmən işğalında, tapdağında. İndi rəhmətə getmiş oğlum Elşənin məzarına gedirəm, dərdləşirəm, onunla sakitləşirəm. Tanrım oğlumu da öz dərgahına apardı. Elşən avtomobil qəzasında həyatını dəyişdi. Elşən ağıllı, düşüncəli, ali təfəkkürə malik gənc idi. Ailəcanlı idi. Qayğımıza qalardı. Atasının bəzi xasiyyəti onda idi. Yenədə Allaha çox şükür. Nə deyim... Allah o biri övladlarımı qorusun. Vətənimin səmasından bu qara buludları yox etsin.

Ailənin böyük oğlu Elvin (1983-cü il təvəllüdlü) Bakı Biznes Kollecinin hüquq fakültəsini bitirib, hüquqşünasdır. Kiçik oğlum Rövşən (1988-ci il təvəllüdlü) C.Naxçivanski adına hərbi liseyi bitirib, H.Əliyev adına Ali Hərbi Məktəbi bitirib, hal-hazırda "N" saylı hərbi hissədə zabit kimi xidmət edir. Nənəyəm, bir qız nəvəm var. Çalışıram, İbrahimin

torpağa yarımçıq qalmış sevgisini həm öz adımdan, həm onun ruhunun şad olması üçün Vətənə həsr edim. Arzu edirəm, Allahdan diləyim var. Torpaqlarımız işğaldan azad olunsun, onun qanı tökülən torpaqlarda İbrahim üçün anım günü edək.



# SEVGİSİ ŞƏHİD OLAN GƏLİN



– ***Rahat uyu, İbrahim, deyərək Almaz xanım ürəyinin harayını illər öncə bir kağız parçasına əmanət etmişdir. Orda belə yazılmışdı***

– Altı ildən bəri torpaqlarımızda gedən qanlı-qadalı vuruşların sonu niyə görünmür görəsən?! Niyə süfrələrimizin qırıntıları ilə böyüyən, ən yaxşı evlərdə yaşayıb, ən yaxşı vəzifələri tutan xain qonşularımız bizə qarşı bu qədər amansız oldular? Budurmu onların bizə cavabı? Nə deyək? Qoy onların xain niyyətləri öz

başlarında çatlasın.

Mən isə, İbrahim, sənə deməyə söz də tapmıram. Axı nə deyim, necə deyim ki, sənsiz hər şey gözlərimdə bir heçə dönüb. Necə deyim ki, ürəyində yaşatdığın, dünyalara sığmayan arzuların yarımçıq qaldı, mən də onları həyata keçirə bilmədim. Necə deyim ki, düz 2 ildir ki, səninlə dərdimi bölüşdürə də bilmirəm. Şəhidlər xiyabanında gül-çiçəyin arasında qərq olunmuş qəbrin indi bir xəyal kimi gözlərim qarşısından gəlib keçir. Belə də iş olar, ilahi? İnsan öz doğmasının qəbrindən necə aralı düşər? Bu nə dəhşət müharibə imiş, ilahi? Nə isə...

İbrahim, sənin ürəyinin nə qədər vətən eşqi ilə döyündüyünü mən çox yaxşı bilirdim. Əgər belə olmasaydı sən dünyalar qədər sevdiyin 3 oğlunu qoyub bu dəhşətli müharibənin qoynuna kişi kimi, mərdümərdanə atılmazdın. Əgər belə olmasaydı, sən də bəzi üzdəniraq cavanlarımız kimi min cür bəhanələr tapıb aradan çıxardın. Səni onsuz da aparmırdılar. Sən isə qala bilməzdin. Buna sənin vicdanın yol verməzdi.

İndi hamımız səninlə fəxr edirik, İbrahim. Həm də fəxr edirik ki, Azərbaycan xalqının nə yaxşı ki, sənin kimi oğulları çoxdu, lap çox. Sənin və sənin silahdaşlarının hansı ki, torpaqlarmızın azadlığı uğrunda canlarını qurban veriblər, onların adları vətən təəssübü çəkənlərin qəlbində həmişə yaşayacaqdır. Bax onda on yaşlı Elvinin: “Mən atam kimi döyüşüb, erməniləri gəbərdəcəyəm”, doqquz yaşlı Elşənin televiziya ekranlarında əsgərlərə baxıb, “Baxın, lap mənim atam

kimi döyüşür!" və nəhayət beş yaşlı Rövşənin "Atam nə vaxt gələcək? O, gedəndə demişdi ki, sənə erməni qulağı gətirəcəm. Bəs niyə gəlmir?" – kimi ürək ağrıdan suallarına yalan-doğru cavab verə-verə səni gözləyəcəyik. Axı deyirlər, şəhidlik zirvəsinə ucalanlar ölmürlər. Sən bu zirvəni əsil qüdrətli vətən oğlu kimi öz gücünlə fəth etmisən. Rahat uyu, İbrahim. Mən inanıram ki, qeyrətli oğullarımızın sayəsində torpaqlarımız da azad olunacaq, sənin kimi qorxmaz qəhrəman Vətən oğullarının qəbri də murdar erməni tapdaqlarından azad olunacaq, mütləq olunacaq! Bax onda mən başımı dik tutub bir daha səninlə fəxr edəcəm!

***Zeynalova Almaz.***
*İbrahimin həyat yoldaşı*



## *Əhmədpur İnqilab*

*İbrahimin böyük qardaşı*



On səkkiz ildir ki, Ağdamın Xındırıstan qəsəbəsində məskunlaşıb. Ağdamın “Şəfəq”, ”Qarabağ” komandasında futbolçu olub. İnqilab indi ağır xəstədir. Birinci qrup əlildir. Mən ondan Şəhid olmuş qardaşı haqqında xatirələrini soruşan zaman ağlamağa başladı, titrəyən əlləri ilə göz yaşlarını silə-silə aramla danışmağa başladı. “O, mənim ürəyimin parası idi, canımda nəfəsim idi. Çörəyimizi yeyib, harınlamış nankor qonşu - quduzlaşmış ermənilərin torpaq iddiaları, bu quldurların kəndlərimizi yandırması, qətllər, qarətlər törətməsi hər bir vətənpərvər Azərbaycanlı kimi İbrahimi də narahat edib qəzəbləndirirdi. Deyəndə ki, ay İbrahim, sən döyüşə getmə, balaca uşaqların var. Biz qardaşlar gedək. Sən ailəni üç kiçik

yaşlı körpə uşaqla qoyub getmə. İbrahim mənə deyirdi ki, sən ailənin ağsaqqalısan, böyüyüsən, sən arxa cəbhədə lazımsan. O biri qardaşlarımın da hər birinin bir problemi var. Mən gedəcəyəm döyüşə. Siz ailəni qoruyun. Çox ailəcanlı idi. Anamı, qardaşlarını, bacılarını çox sevərdi. Bütün ailənin qayğısını çəkərdi. Heç bir çətinlikdən qorxmazdı. Qardaşım olduğu üçün demirəm, çox igid oğlan idi. Vətən üçün canını hər zaman verməyə hazır idi və verirdi də. Xocalı hadisəsi onu çox sarsıtmışdı. Qəzəbi var idi. Özünə yer tapmırdı.

Bizim ev ön cəbhəyə yaxın idi. İbrahim bizə tez-tez gələrdi, yuyulmalı paltarlarını gətirərdi. Həyat yoldaşım Sahibə xanım onun xətrini çox istəyirdi. Tez bir zamanda paltarlarını yuyub qurudub qardaşıma təhvil verərdi. İbrahim iştirak etdiyi döyüşlərdən danışardı, Sahibə xanım da onun söhbətlərini dinləyə-dinləyə qulluğunda durardı, bir bacı nəvazişi göstərərdi. İbrahim Naxçıvanik, Pircamal, Qaraqaya, Martuni, Abdal Gülablı döyüşlərində iştirakından, döyüşün necə keçməsindən söhbət edərdi. Mənfur ermənilərin məkrindən, onların qorxaqlığından danışardı. Mən onu tez -tez yuxuda görürəm. Bizim evimiz Ağdamda Qobu çayının kənarında idi. Elə yuxularımda onu işğal altında qalmış torpaqlarda olan evimizdə görürəm. Allah ona rəhmət etsin. Məzarı nurla dolsun. İbrahim uyuduğu torpaq işğal altında olan Ağdamımızın Şəhidlər Xiyabanındadır. Ziyarətinə gedə bilmirəm, bu da bir dərddir mənə. Allah bizə o torpaqlara qayıtmağı nəsib etsin inşallah.

## *Əhmədpur Firdovsi*
*Qardaşı*

Biz ailədə yeddi uşaq idik. İnqilab, Firdovsi, İbrahim, Almaz, Solmaz, Əzizə, Eldar. Atamız Əhmədpur Səfər Əhməd oğlu, anamız Məmmədnicat Bacıxanım. Atamızı erkən itirmişik. O zaman ailədə üçüncü qardaş olan İbrahimin 6 yaşı var idi. Amma o kiçik yaşlarından əməyə, zəhmətə qatlaşmışdı, ağlı kəsəndən ailə üçün çalışırdı. Qardaşım olduğu üçün demirəm, çox cəsur, mərd idi. Qarabağ problemləri, ermənilərin haqsızlığı təbii hər bir Azərbaycanlı kimi İbrahimin də etirazına, narahatçılığına, qəzəbinə səbəb olmuşdu. Biz İrandan gəlmiş siyasi mühacir olduğumuz üçün əsgərliyə çağırılmırıq, hərbi xidmətdən keçməli deyildik. Amma İbrahim özü könüllü döyüşə getdi. Onun qoçaqlığını hələ 16-17 yaşlarında çox görmüşdüm. Ağdamdan Qobu çayı axır.Yaz vaxtı idi. Güclü sel oldu. Sel bir uşağı axıdırdı, heç kim yaxına gələ bilmədi. İbrahim özünü fikirləşmədən o uşağı ölümün caynağından qurtardı. O, Ağdam Dəmiryolu vağzalında qaldırıcı kranda işləyirdi. İş yoldaşları onu çox sevib, hörmətlə yanaşardılar. İbrahim könüllülər dəstəsinə qoşulan zaman mən ona: “Qardaş, sən getmə, üç körpə uşağın var, böyük qardaşımızla mən gedəcəyəm” -dedim. İbrahimsə inadkarcasına söylədi: “Siz ailənin böyüklərisiniz, bir şey olarsa, siz ailəni bir yerə toplayıb, müdafiə edə bilərsiniz”. Bir də məğrurcasına,cəsarətlə

söylədi: "Qardaş, sən narahat olma, mənim uşaqlarıma, Dövlət yaxşı baxacaq". Onun döyüşçü yoldaşları ilə Ağdamın Novruzlu kəndini necə mərdliklə qoruduqlarını görmüşəm və fərəh hissi keçirmişəm. Vətən, el üçün canını fəda etməkdən qorxmayan belə igid qardaşımın olduğuna sevinmişəm. İtki elə bir şeydir ki, onun əvəzi olmur. Qardaşım üçün çox darıxıram. Gözümün önündən lent kimi gəlib keçir onun qısa həyat səhifəsi, həyat hekayəsi. Elə günlər olur ki, İbrahim üçün burnumun ucu göynəyir, amma bir təsəllim var, Vətən üçün, Azərbaycanımız üçün sinəsini gülləyə sipər etdi, şəhid oldu. Allah onun övladlarını və qardaşımın adını uca tutan İbrahimin xanımı - Almaz xanımı qorusun. Vətən üçün canını fəda edən şəhidlərimizə Allah rəhmət etsin. Ruhları şad olsun, Vətən sağ olsun deyirəm.





***Məhərrəmov Ədalət***

*Ağdam sakin , II qrup əlil,*
*Azərbaycanın Milli Qəhrəmanı*
*Asif (Fred) Məhərrəmov adına*
*İnkişaf Fondunun sədri*

Mən İbrahimi uşaq vaxtlarından tanıyıram. Bir rayonda uşaqlığımız və gəncliyimiz keçib. Böyük qardaşı İnqilab ilə daha yaxın idik. Ağdamda İmarət meydançasında tez-tez futbol oynamağa yığışırdıq və İbrahim də böyük qardaşının yanında gələrdi. Belə ünsiyyətimiz qurulurdu. Cəsur idilər bu qardaşlar, İbrahimi də ürəkli və zirək oğlan kimi tanıyırdım. Bu qardaşların qəlbində, iç dünyasında bir Vətən yanğısı var idi. O tayın Azərbaycan həsrəti. O, özü könüllü qoşulmuşdu Vətən, torpaq uğrunda mübarizəyə. 1999-ci ildə ordu olmayan bir vaxtda, noyabrın 10-da vətənpərvər igidlərdən könüllülər dəstəsi yarandı. Noyabrın 15-də isə artıq qeydiyyatdan keçib Xudu Xuduyevin batalyonunda tağım kimi 96 əsgər sayı ilə əmirdən keçdi. Sonralar bu say 300-dən çox oldu. Bax bu 96 döyüşçünün biri İbrahim idi. Həmin tarixlərdə bu batalyon Ağdam istiqamətində kəndlərin müdafiəsi mövqeyində durmuşdu. Qardaşım Milli Qəhrəman Asif Məhərrəmovun başçılığı və birbaşa cəhdi ilə 7 mart 1992-ci ildə 375 nəfərdən ibarət olan 859 saylı batalyon yarandı. Şelli, Qaraqaya, Qızılcabel, Mantar

dağı üstündə, Pir yüksəkliyi aşağısında olan post gözətçi məntəqələrində birlikdə olurduq. Zarafatı çox sevməsə də, hərdən baməzə söhbətləri olurdu. 1992-ci il fevralın 24-25-i Xocalı istiqamətində təcili bir dəhliz yol açmaq lazım idi ki, dinc əhalini oradan çıxarmağa. Bu əməliyyatı həyata keçirmək üçün plan hazırlanmışdı. Hava çox soyuq və qarlı idi. Biz fevralın 24-25-i Qaraqayanı aldıq və ermənilərdən təmizlədik. Fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri SSRİ dövründən Xankəndi (Stepanakert) şəhərində yerləşən 366-cı motoatıcı alayın zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Xocalı şəhərini işğal etdi. Hücumdan əvvəl, fevralın 25-i axşam şəhər toplardan və ağır artilleriyadan şiddətli atəşə tutuldu. Nəticədə, fevralın 26-ı səhər saat 5 radələrində Xocalı tam alova büründü. Mühasirəyə alınan şəhərdə qalmış təqribən 6700 nəfər xocalılı Ağdam rayonuna çatmaq ümidi ilə şəhəri tərk edib və istiqamətlərini Ağdama doğru müəyyən etdilər. Çalışırdıq ki, Ağdam istiqamətinə gələnlərin ümid etdiyi dəhlizi açaq. O, insanların Ağdama gəlib sağ-salamat çatması üçün ermənilərin Əsgəranın Qaraqaya istiqamətində olan erməni postunu və dəstəsini zərərsizləşdirməli idik ki, əks təqdirdə canlarını qurtarıb gələn xocalıları bu istiqamətdə də güllələbarana tutmasınlar. Qaraqaya alınmasaydı insanların sağ qalması sual altında ola bilərdi. Qaraqaya istiqamətində Naxçıvanik ferması deyilən yerdən zavallı xocalıları Ağdama çıxartdıq. Müdafiə üçün Əsgəranın

Xromort kəndi ilə Ağdamın Gülablı kəndinin arasında bütün döyüşçülərimiz mövqe tutdular. Biz həmin vaxt ancaq avtomat ilə, köhnə tüfəng ilə vuruşurduq. Texnikamız yox idi. Yaqub Rzayev (Qatır Məmməd) və Milli Qəhrəmanlar Allahverdi Bağırov, Şirin Mirzəyev, Asif Məhərrəmovun başçılıq etdikləri döyüşçü heyəti çox kömək etdilər insanların çıxarılması üçün. İbrahimin şücaətini orada da gördüm. Neçə-neçə insanı, meyitləri, yaralıları çıxartmağa kömək etmişdi. Çox ağrıdıcı bir faktdır, bir günün içində yer üzündən silinən şəhəri tərk edən 6700 Xocalı sakinindən 613-ü düşmən gülləsinə tuş gəlib qətliamın qurbanı oldu. Bu soyqırım nəticəsində 63-ü uşaq, 106-ı qadın, 70-i qoca və qarı olmaqla, 613 nəfər Xocalı sakini qətlə yetirildi, 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirdi. Düşmən gülləsinə tuş gəlib yaralanan 487 nəfərdən 76-sı uşaq idi. 1275 xocalılı əsir, 150 xocalılı itkin düşdü. Bu soyqırımın bu nəticəsi xalqımıza böyük fəlakət oldu.

1992-ci il mayın 10-da Əsgəranın Aranzəmin, Pircamal, Naxçıvanik kəndinə 30 döyüşçü ilə hücum etdik. Mən onu da qeyd edim ki, o vaxt mən tağım komandiri idim, İbrahim isə bölük komandiri. Aranzəmin, Pircamal kəndini aldıq, 9 erməni əsir götürdük və hərbi məntəqəyə təhvil verdik. Bu döyüşdə İbrahimin də böyük cəsarətini gördüm. 1992-ci ilin may ayının 15-də Azərbaycan helikopterini (vertalyot) erməni tərəf atəşə tutub, vuran zaman helikopter Ağ-

damın Abdalgülablı kəndi ilə Əsgəranın ermənilər yaşayan Haslı kəndinin arasında olan əraziyə düşmüşdü. O ərazidən meyitlərin götürülüb çıxardılması çox çətin idi. Amma bu çətinliyə baxmayaraq bizim tağımın döyüşçüləri bu əməliyyatı həyata keçirdi, həmin ərazidən meyitləri çıxartdı və bu cəsur döyüşçülərin arasında İbrahim də vardı. 1992-ci il iyunun 12-si batalyon komandiri Asif Məhərrəmov bizə göstəriş verdi ki, batalyonun döyüşçüləri iki hissəyə bölünsün. I hissə Naxçıvanikə hücum edib oranı götürməli, II hissə isə Əsgəranın körpüsünü götürsün. Həmin bu döyüşdə PK ağır çarxlı silah İbarhimdə idi. Ermənilər Əsgərandan Naxçıvanikə içərisi canlı qüvvə və sürsat olan maşınlar göndərirdilər. İnanın ki, İbrahimin maşınlara atəş açmağı ilə maşınlar alov içində yanmağa başaldılar. İtkiləri çox oldu. Naxçıvanikə gedən köməyin qarşısı alındı. Elə həmin günü biz səngərdə bir yerdə idik, postu qoruyurduq. Mən tağım komandiri olduğum üçün döyüşçülərə nəzarət etmək üçün yerimi dəyişdim, səngərin o biri başına gedib göstərişlərimi verib geri dönən zaman mənim yerimdə İbrahimin əyləşdiyini gördüm. İbrahimə öz yerinə keçməsini söylədim, çünki o yerdən qarşı düşmən tərəfi izləyirdik. İbrahim də: “Mən baxıram, - dedi, - narahat olma” - söylədi. Bir az müddət keçmişdi İbrahim qıvrılaraq söylədi: “məni vurdular”. Əvvəl mən inana bilmədim. Snayperlə vurulduğunu anladım. Bütün bədəni qan içində idi. Özünü güclə ələ alıb əsgər geyiminin qoltuq cibindən bayrağı mənə verdi.

Baxdım bayraq qan içində idi. Çox pis oldum, amma biruzə vermədim. İbrahim heysiz-heysiz dedi: " Mənim bayrağımı saxlayın, sağalıb gələndən sonra özümə qaytararsınız, azad edilən şəhərlərimizin görünən yüksəkliklərinə asacağam" . Bu o bayraq idi ki, komandirin göstərişi ilə geri alınacaq şəhərlərə asılacaqdı. Kəmaləddin Səfərov və digər döyüşçü yoldaşlarımız onu səngərdən çıxarıb Ağdamın Zəngişallı Hərbi Hospitalına yerləşdirdilər və həmin axşam vəziyyəti ağırlaşdı, aldığı güllə yarasından vəfat etdi. Allah rəhmət etsin!





***Elməddin Səfərov,***
*Ağdam rayon sakini, məcburi köçkün kimi Bakıda məskunlaşmış II qrup əlil*

**M**ən Qarabağ müharibəsinə 16 yaşımda getmişəm. Yaşca balaca olsam da döyüçü yoldaşlarımdan, əməliyyatlarda onlarla bərabər iştirak edirdim. İbrahimi 1992 - ci ilin aprel ayından tanıdım. Onu biz İbiş deyə çağırırdıq. Cəsur, mərd oğlan idi. Onun cəsurluğu, vətənsevərliyi 3 az yaşlı övladını evdə qoyub cəbhəyə gəlməsidir. Həmin vaxtlar 21 dənə Qrad qurğusu var idi. Əvvəl o Qrad qurğuları İmarətdə idi. Sonra düşmən tərəfin bu qurğuları axtarması haqqında informasiya aşkarlandı və tez bir zamanda İmarətdən çıxarılıb öncə Çəmənli kəndində, oradan Göytəpə kəndində, Xındırıstan kəndində gizlədildi. Onu gizlədib qorumaq lazım idi. Çünki o Qrad qurğusu haqqında düşmən tərəfin məlumatı var idi. Əgər onlar onu tapıb yerini müəyyən edib, onu partlatsaydılar rayon üçün də, kəndlər üçün də fəlakət olardı. Həmin o qorunub saxlanılan 21 Qrad qurğusu ön cəbhədə düşmənin həmlələrinin qarşısını çox alıb. Bax o 21 Qrad qurğusunun qorunub saxlanmasında, mühafizə edilməsində rəhmətlik İbrahimin də əməyi olub. Bu qrad qurğularının yerləşdiyi ərazi gizli saxlanılırdı, qorunması məsuliyyət idi. Çünki düşmən tərəf duyuq düşməli deyildi. Hələ o vaxt

həmin qrad qurğularını qoruyan zaman postlara təyin olunan döyüşçülərin içində İbrahim də var idi. O, döyüşə çox can atırdı: “Bir ön cəbhəyə tez gedib, düşmənlərə sözümü silahımla deyərdim“ - deyirdi. Mənsə ona: “İbrahim, bu qoruduğun strateji əhəmiyyəti olan sahə də çox vacib və məsuliyyətdir” - deyirdim.

1992-ci il fevralın 25-də səhər Qaraqaya (Əsgəran) mövqeyini götürmək üçün oraya 6 dəfə hücum etdik və sonda aldıq. Qaraqayanın alınması xocalıların Ağdama keçməsinə böyük kömək oldu. Təbii batalyonumuzun döyüşçüləri çox igidlik göstərdilər. İbrahimin də bu döyüşlərdə mərd-mərdanə vuruşduğunu görmüşəm. Döyüşlərin birində döyüşçü yoldaşımızdan biri ağır yara almışdı, onun yaralanıb qaldığı sahəyə keçə bilmirdik, çünki o hissəyə daha çox mərmi atırdılar. İbrahim: “Uşaqlar, mən yoldaşımızın ölüsünü də olsa oradan gətirməyə gedirəm, mənfurlara icazə verməyəcəyəm ki, onu götürsünlər dedi və həmin hissəyə tərəf baxıb ani fikirləşdi. Biz - orada olan yoldaşlar vəziyyətin necə olduğunu bilirdik. Bilirdik ki, ağır yaralanan yoldaşımızı çıxarmaq çətin olacaq, amma düşünüb bir plan cızmalı idik. Həm yoldaşımızı xilas edək, həm də ki, itki verməyək. Bir söz demədik İbrahimə, amma bu vətənpərvər igidə anlatdıq ki, bir az gözləyək atəş, güllə yağışı kəssin, bir az hava qaralsın. İki nəfərlə gedib gətirərik. İbrahim bizlə razılaşmış kimi özünü göstərdi. Həmin vaxt havanın qaralmasına az qalırdı. İbrahim gözləmədi və bir də gördük ki, sürünə-sürünə yaralanmış

döyüşçü yoldaşımıza tərəf gedir. Allahdan ona bir güllə belə toxunmadı. İbrahim çox çətinliklə ağır yaralanmış, qanı dayanmayan əsgəri bizim dayandığımız nöqtəyə gətirdi. Allah rəhmət etsin, igid qardaşımız İbrahimə! Tanrı övladlarını qorusun.





## *Cəbiyev Cəbrayıl (Cəbi)*

*II qrup əlil Qarabağ müharibəsinin iştirakçısı*

Bakıda məskunlaşmış Ağdamın Xıdırlı kəndinin sakini. 1988-ci illərdən mən İbrahimin qardaşı ilə dostluq edirdim. Sonra da bir cəbhədə döyüşəsi olduq. Çox danışan deyildi, zarafatı da az edərdi. 1991-ci il idi. O, hər zaman döyüşdə sinəsini irəli verib, düşmən gülləsindən qorxmazdı. Ağır döyüş əməliyyatlarına gedən zaman döyüşçü yoldaşları ona deyirdilər: “Sənin üç uşağın var, getmə, biz bu döyüşdə iştirak edək”. İbrahim isə: “Mən gedəcəyəm!”, - deyib israrla, cəsarətlə döyüş meydanına atılırdı. Döyüş yoldaşları içərisində qorxmaz, döyüşə girən bir igid idi İbrahim. Yadımdadır, 1990-cı ildə İmarət stadionunda mitinqə toplaşmışdıq. Birdən silahlı texnikanın stadiona tərəf gəldiyini gördük, camaatın çoxu meydandan qaçdı, 20 nəfər adam qalmışdı. Onlardan biri də İbrahim idi. Həmin vaxt bizim əlimiz yalın idi, silahsız idik... Şəhidlik zirvəsinə ucalmış İbrahim qardaşıma Allahdan rəhmət diləyirəm, ruhu şad olsun!



***Fərahim Əhmədov***
*Xındırstan qəsəbəsində məskunlaşmış Ağdam rayon sakini , ikinci qrup əlil.*

**M**ənim İbrahimlə döyüş yolum Azərbaycanın Milli Qəhrəmanı Fred Asifin komandanlığı ilə "N" saylı hərbi hissədə olub. Ağdamın bütün könüllüləri kimi biz də torpağımız uğrunda vuruşub, canımızı fəda etməyə hazırdıq. Martuninin Qaradağlı, Qaraqaya, Xromort, Naxçıvanik, Aranzəmin, Pircamal, Ağdamın Gülablı kəndlərində gedən döyüşlərdə bərabər iştirak etmişik. Aylarla Ağdamın Şelli kəndində 87,88 post məntəqələrində birlikdə ərazilərimizə nəzarət etmişik. 1991-ci ilin sonlarında, döyüşlərin birində döyüşçü yoldaşlarımızdan biri ayağından möhkəm yaralanmışdı, qan itirirdi və tibb məntəqəsinə aparmaq üçün çox zaman sərf olunacaqdı ki, bu da yaralı üçün təhlükə idi. İbrahim tez köynəyini iki yerə parçalayıb, döyüşçünün ayağına bağladı ki, qan itkisinin qarşısını alsın. Yaralı döyüşçünün döyüş mövqeyində özü dayandı. Qorxmaz döyüşçü idi, döyüşdə olan zaman heç bir şeydən çəkinmirdi, qorxmurdu. Döyüş zamanı İbrahim qabaqda özü gedirdi, sinəsini düşmən gülləsinə tuş edərək özündən qabağa heç kimi qoymurdu. Xocalı hadisəsi ona çox təsir etmişdi. Xocalı soyqırımı haqqında ürək yanğısı ilə danışardı. Biz ikimiz də

Ağdamda ət kombinatında işləyirdik, döyüşə də elə oradan getmişdik. O vaxtlar ət kombinatının müdiri Rasim Quliyev idi. Rasim Quliyev biz döyüşə getdiyimiz üçün bizi işdən azad etmişdi. Amma bir müddət keçəndən sonra kombinata yeni rəhbər gəldi və bizi işə bərpa etdi, amma biz cəbhədə döyüşdə olurduq. Biz döyüşə sevə-sevə gedirdik, çünki vətəni qorumaq üçün gedirdik. Bizimlə döyüşən Ağdamdan olan igid əsgərlərdən yadımda qalan Kamil, Valeh, Üzeyir, Cəmaləddin, Şahin və digərlərinin qəhrəmanlıqla döyüşmələri gözümün önündədir. Allah dünyasını dəyişmiş igid döyüşçülərimizə rəhmət etsin, sağ qalan Qarabağ müharibəsi iştirakçılarına can sağlığı versin. İbrahimə Allah rəhmət etsin, qəbri nurla dolsun. Bugünkü gün şəhid İbrahimin xanımı Almaz Zeynalova şəhid ailələrinin qayğısına qalır və şəhid ailəsinin nə olduğunu bu zəhmətkeş, məğrur qadın çox gözəl bildiyi üçün həmin ailələrin probleminin həllinə köməklik göstərir. Cəsur İbrahimin xanımı məhz Almaz Zeynalova kimi olmalıydı. Tanrı İbrahimin xanımını və balalarını qorusun”.



***Rey Kərimoğlu***

*Qarabağ müharibəsinin iştirakçısı, Bakıda yaşayan Ağdam rayon sakini, "Qazilər" informasiya portalının redaktoru .*

**M**ən polkovnik-leytenant, Milli Qəhrəman Şirin Mirzəyevin yaratdığı batalyonda kəşfiyyatçı dəstəsində olmuşam. Mən bir Ağdamlı kimi Şəhid İbrahimi tanımasam da onun haqqında çox eşitmişəm. Onun döyüşçü dostlarının dediklərindən belə məlum olur ki, İbrahim çox mərd, cəsur, döyüşkən ruhlu bir igid əsgər olub. Ağdamlı Qarabala, Allahqulu və s. igid əsgərlərin mübarizliyi haqqında hər zaman söhbətlər gedirdi. Mən şəhid İbrahimin həyat yoldaşı Almaz Zeynalovadan söhbət açmaq istərdim. Almaz bacımız gənc yaşlarında Azərbaycanın iqtisadi durumunun çətin, ağır vaxtında təkbaşına üç az yaşlı uşağını böyütmüş və üçünə də ali təhsil vermiş, cəmiyyət üçün xeyirli övladlar tərbiyə etmişdir. O, ömrünü-gününü övladlarına həsr edərək onların xoşbəxtliyi üçün çalışmışdır. Almaz xanım özü də Azərbaycan cəmiyyəti üçün çox işlər görmüşdür. O, "Şəhid Ailələrinə Sosial Dəstək İctimai Birliyi"nin sədridir. O, bu ictimai təşkilat ilə şəhid ailələrinə mənəvi və maddi köməklik edir. Çünki şəhidin ailəsi olan bu vətənpərvər, namuslu, səmimi xanım şəhid ailəsinin

nə demək olduğunu gözəl bilir. Almaz Zeynalova hər cür hörmətə layiqdir. Allah onun övladlarını qorusun, xoşbəxt olsunlar.





***Rabil Dərgahov***

*Bakının Sulutəpə qəsəbəsində məskunlaşmış Ağdam rayon sakini , ikinci qrup əlil*

Rabildən Şəhid İbrahimin döyüş yolu haqqında xatirələrini soruşan zaman onun gözlərinin necə dolduğunun şahidi oldum. “Bu igid döyüşçü yoldaşım haqqında danışmaq mənə elə də asan deyil, gözlərimin önünə onun sonuncu ağır yaralanmış vəziyyəti gəlir” - dedi Rabil. Rabil Dərgahov İbrahimlə bir hərbi hissənin döyüşçüləri olublar. Döyüşə çox zaman birlikdə gediblər, həm də yaxın qohum idilər. İbrahimin necə qeyrətli, cəsur, qorxmaz bir vətənpərvər olduğundan danışdı.

İbrahim döyüş meydanına mərd- mərdanə atılardı, hər kəsdən tez qarşıya keçib, döyüş mövqeyində birinci olmağa çalışardı. Uca boylu idi, hərəkətləri cəld idi. Döyüş əmri gələn kimi İbrahim artıq döyüşə hazır vəziyyətdə, gözləmə mövqeyində olurdu. Qorxu hissi yox idi onda. Qaraqaya yüksəkliyi uğrunda ağır döyüş gedən zaman rəhmətlik İbrahim yaralandı. Mən onu Sarcalı hospitalına gətirdim, çox ağır idi vəziyyəti. Qarın nahiyyəsindən və yuxarı bud hissəsindən yaralanmışdı. Onu hospitala gətirən zaman o, mənə halsız vəziyyətdə çox zəif səslə: “Rabil, mənim vəziyyətim yaxşı deyil. Bəlkə gec sağalaram, evə, uşaqlara baş çəkməyim gec olar, sən mənim cibimdə

olan pulu götür, əziyyət də olsa sənə, ailəmə çatdırarsan" - dedi. Mən onun üst geyiminin qoltuq cibindən pulları götürən zaman pulların qan içində olduğunu gördüm, götürdüm. Artıq İbrahim çox halsız idi, heç nəyi hiss etmirdi. Hospitalda həkimlər ona yerindəcə baxış keçirib, elə o andaca əməliyyata götürdülər. Mən geri döndüm, ön cəbhəyə. İki gündən sonra hospitala ona baş çəkməyə gəldim. Həkimlərdən İbrahimi soruşdum, onlar yaralı çoxdur, özünüz baxın, axtarın, soruşun dedilər. Mən də elə etdim. Palatalara bir-bir girib yaralı döyüşçülər arasında İbrahimi axtardım, amma tapa bilmədim. Bir tibb bacısı mənim təşvişimi görüb: "Siz onu rəhmətə gedən döyüşçülər arasında axtarın" - söylədi. Mən şəhid olmuş döyüşçülərin cəsədlərinə baxdım və birdən İbrahimi gördüm. Dünya başıma fırlandı və elə bağırdım ki, tibb bacıları məni sakitləşdirə bilmirdilər. İbrahimi qucaqlayıb ağlaya-ağlaya: "Axı sənin üç körpə balana mən necə cavab verəcəyəm?" - dedim. Sakitləşib rəhmətliyin cəsədini hospitaldan götürüb yaxınları ilə Ağdamın çıxacağında, 1941-1945-ci il Böyük Vətən Müharibəsinin döyüşçülərinin xatirəsinə qoyulmuş abidənin arxasında olan məzarlıqda torpağa tapşırdıq. Allah onun ruhunu şad etsin. Övladlarını xoşbəxt etsin. Həyat yoldaşının Vətənpərvərlik sevgisini davam etdirən Almaz xanım Zeynalovaya Tanrıdan can sağlığı, xoş günlər diləyirəm. Qarabağ müharibəsində iştirak edən döyüşçülər və şəhid döyüşçülər haqqında xatirələrin, məlumatların yazılması, kitabların işıq üzü görməsi təqdirəlayiqdir.



***Vaqif Allahverdiyev***
*Ehtiyatda olan zabit,*
*Qarabağ müharibəsi əlili.*

**E**şidəndə ki, şəhid İbrahim Əhmədovun döyüş yolundan kitab yazılır, çox sevindim. Çünki Azərbaycanın ərazi bütövlüyü uğrunda igidliklə vuruşaraq şəhid olmuş hər bir vətən övladı haqqında kitab yazıb onların xatirələrini əbədiləşdirmək ən nəcib və xeyirxah işdir.

İbrahimi hələ gənclik illərindən tanıyırdım. Qardaşıyla da salam əlöykümüm var idi. Vətənpərvər uşaqlar idi.

İlk dəfə hərbi forma geyinənlər içərisində İbrahim də var idi. Mən Azərbaycanın Milli Qəhrəman Allahverdi Bağırovun batalyonunda, İbrahim isə Azərbaycanın Milli Qəhrəmanı Fred Asif Məhərrəmovun batalyonunda xidmət edirdik. Dəfələrlə ağır döyüşlərdə İbrahimin cəsurluğunu görüb çox sevinirdim ki, Azərbaycanın belə igid oğulları var. Bu kitabda Ağdamda qonşumuz olmuş, indi isə istedadlı şair Germanın, rəhmətlik Fred Asifin qardaşı Hacı Ədalətin, qardaşım Rauf İlyasoğlunun, eləcə də Qarabağ müharibəsi əlili, igid, vətənpərvər dostumuz Elməddin Səfərovun ürək ağrısı ilə yazıları ilə tanış oldum.

Jurnalist, pedaqoq İradə Əliliyə, eləcə də, İbrahimin ömür-gün yoldaşı Almaz xanıma sağ ol deyirəm.

Ağdam rayonu Qarabağ müharibəsində 6 mindən çox şəhid verib. Vətən yolunda canından keçən bütün şəhidlərimizə Allahdan rəhmət diləyir və inanıram ki, işğalda qalmış torpaqlarımızı tezliklə yağı düşmənlərdən azad edəcəyik.





***Rauf İlyasoğlu,***
*Şair publisist*

**1959**-cu il mart ayının 19-da Qarabağın dilbər guşələrindən biri olan Ağdam şəhərində dünyaya göz açmışam. Orta məktəbi əvvəl 4 nömrəli, sonra isə 8 nömrəli məktəbdə bitirmişəm. İnstitutda oxuduğumuz illərdə, eləcədə Bakıda təyinatla işlədiyim o gərgin günlərdə də Ağdamla sıx əlaqədə olmuşam. Çünki, valideynlərimin, bacı və qardaşlarımın yaşadıqları ikimərtəbəli, yaraşıqlı evimizdə, güllü-çiçəkli, meyvəli bağımızda dincəldiyim o gözəl günlər mənim xatirəmdən heç zaman silinmir. Yaşadığımız bu məkanda insanlarda nə paxıllıq, nə də kin-kidurət olardı. Ağdam camaatı çox mehriban, qonaqpərvər insanlardır. Bizi davakar kimi tanısalar da, haqsızlığa qarşı barışmaz olmuşuq.

İmarətdə yerləşən "Qarabağ" futbol komandasının dəfələrlə oyunlarına həvəslə baxmışıq.

Allahverdi, Eldar, Qıdan, Adil, İnqilab və neçə-neçə futbolçular bizə hər zaman sevinc-qələbə bəxş ediblər. Onu da qeyd edim ki, həmin imarətdə Pənah xanın, İbrahim xanın, Xurşud banu Natəvanın məzarları uyuyur. Biz tez-tez Qarabağın, Şuşanın əsasını qoymuş bu dahi insanları ziyarət edir və ağ daşlardan tikilmiş Ağdam abidəsinə (künbəz formalı) tamaşa

edər, qürur hissi keçirərdik.

Ağdam bizim həm aranımız, həm də dağımız idi. Havası təmiz, bir dənə də olsun ağcaqanada rast gəlmədiyimiz səliqəli şəhərimiz...

Dağlıq Qarabağın mərkəzi adlandırılan Stepanakert – (əvvəlki adı Xankəndi olub.) yuxarıda qeyd etdiyim Qarabağ xanı Pənahxanın bağ və otlaq sahələri olub.

Martunu və Mardakerddə yaşayan azərbaycanlılardan 30-40 nəfər sakin 1988-ci ildə Ağdam şəhər Partiya komitəsinin binası qarşısına yığışmışdı. Biz də ora gələrək onların dərdlərinə acıyırdıq. Onlar həyəcan təbili çalırdılar ki, xaricdən gəlmə ermənilər, yerli erməniləri qızışdırır, hər evə silah paylayır, güclü silahlanır, bizə hədə-qorxu gəlir, bizi evimizdən, eşiyimizdən çıxardırlar. O vaxtlar mərkəzi komitədə işləyən rəhbərlər vaxtında bu məsələyə reaksiya versəydilər, bəlkə də bu qədər torpaqlarımız işğal olunmazdı.

Bədnam qonşularımızın torpaqlarımıza yerikləməsi, azərbaycanlılara qənim kəsilməsi bütün bu acı nəticələrə gətirib çıxartdı.

Bu beş il ərzində Ağdam camaatı mətin dayandı. Dövlət Moskvanın göstərişi ilə azərbaycanlılardan quş tüfəngini yığanda, ermənilər silahlanır, daha da qudurğanlıqlar edir, körpələrə, qocalara, hamilə qadınlara belə aman vermirdilər.

Erməni quldurları xarici havadarlarının köməkliyi ilə əvvəl Dağlıq Qarabağın ərazisində yaşayan azərbaycanlıları öz doğma kəndlərindən didərgin saldılar,

neçə-neçə günahsız, əliyalın insanları, namərd, nankor qonşularımız amansızlıqla qətlə yetirdilər. 1992-ci ildə Xocalı soyqrımını törətdilər. İnsanlığa sığmayan vəhşiliklə bir şəhəri yerlə yeksan edən, kütləvi surətdə insanları məhv eləyən bu quldurlar Ağdamın igid oğullarının gözlərini qorxutmaq istədilər. Ermənilər yeni-yeni əraziləri zəbt eləməklə bəşəri cinayətlər törətməkdən zövq alırdılar.

Ağdam bu müharibədə 6 mindən çox şəhid verdi. Mən deyərdim ki, 6 min şəhid 6 min qəhrəman deməkdir. Çünki, başlarına mərmilər yağdırılsa da, şəhəri bir an da tərk etmədilər. 22 ildir ki, doğulub boya-başa çatdığım yurdumun həsrətini çəkirəm.

Vahid komandanlığın olmaması ucbatından, eləcə də erməni və rus əsgərlərinin, güclü texnikanın sayəsində neçə rayon və kəndlərimizi itirdik. Çox heyif! Yazıçı və şairlər Azərbaycanın igid oğulları və mərd qızları haqqında kitablar yazır, şəhidlərimizin xatirəsi hər zaman anılır. Vətənpərvər ziyalı İradə Əlilinin tərtib etdiyi "Güllə səsindən doğulan kitab"ın əlyazmalarını bir-bir oxudum.

Elmədinin, Ədalətin, Germanın və başqalarının ürək ağrısı ilə yazdıqları o kövrək xatirələr qəlbimi sızlatdı. İgid-döyüşçü şəhid İbrahim Əhmədpurun şərəfli ömür yoluna həsr olunmuş bu kitabda döyüş dostlarının xatirələri ilə yanaşı, ömür-gün yoldaşı Almaz Zeynalovanın fədakarlığından, mübarizliyindən söhbət açılır. Üç körpə övladını həyat yoldaşının ümidinə qoyaraq ölüm-dirim savaşına atılan, ərazi

bütövlüyümüzü qoruyaraq ən qaynar nöqtələrdə düşmənlə qarşı-qarşıya gəlməkdən qorxmayan, şir kimi döyüşərək şəhid olmuş İbrahim kimi oğullar xalqının gözündə əsl qəhrəmandır.

Almaz xanım övladlarını çətinliklə, min-bir əzabla böyütmüşdür.

22 il vaxt keçsə də, Almaz xanımın gözləri elə hey yol çəkir. O doğma ellərin həsrətiylə yaşayır. Şəhid Ailələrinə Dəstək ictimai birliyini yaratmaqla, cəbhə bölgələrində, digər mötəbər məclislərdə müxtəlif tədbirlər keçirir, layihələr hazırlayır. Şəhid ailələrin dərd-sərini unutmaq, onları ovundurmaq naminə bacardığı köməkliyi edir.

Yüzlərlə şəhid haqqında yazdığım məqalələrimi göz yaşımla sulayıram və onda bir az təskinlik tapıram.

Əlbətdə ki, bu bizim borcumuzdur.

Bir dəfə şəhid anası Minaxanım ana mənə oğlunun şəklini gətirib dedi: - Rauf müəllim, bu mənim oğlumun yeganə şəklidir. İtməsin. Onsuz da oğlum Qarabağda erməni müharibəsinə döyüşərək itkin düşüb. O şəklin üzünü çıxardıb bir oçerk yazmışdım. Minaxanım ana mənə öz təşəkkürünü bildirib dedi: Elə bil ki, oğlumu tapmışam. Sən mənim balamsan. Həqiqətən də igid oğullar şəkil çəkdirməyə yox, vətəni qorumağa getmişdilər. Almaz Zeynalovanın ömür yoldaşı da əsl döyüşçü olmuş və bir dəfə də olsun hərbi formada şəkil çəkdirməmişdir. Milli Qəhrəman Gültəkin Əsgərovanın anası Rəfiqə xanımla bir neçə gün

danışmasam, tez mənə zəng edir: Rauf, ananı unutmusan?!

– Heç sizi unutmaq olarmı?

Ömür-gün yoldaşımın dayıları, milli Qəhrəman Allahverdi və Eldar Bağırov qardaşları haqqında, eləcə də yüzlərlə qəhrəmanlar haqqında kitablarımda, qəzet və jurnallarda yazsam da yorulmaq bilmirəm. II qrup əlil olduğum üçün hər dəqiqə əllərim tutula bilər. Odur ki, şəhid haqqında yazmağı hansısa pullu məmurdan, rəisdən yazmaqdan üstün tuturam. Məni özünə doğma bilən, şəhid analarının, şəhid bacılarının, şəhid ailələrinin qarşısında baş əyirəm. Siz hər cür hörmətə, şöhrətə, şərəfə layiq doğmalarımsınız. Biz balaların, nəvələrin xatirinə yaşamalı, qələbə sevincini dalmalıyıq.

Allah bu arzumuza bizi çatdırsın. Amin

Almaz Zeynalova dörd qardaş, iki bacıdırlar. Qardaşları Şahin, Hökmdar və Rəhimdar:

1982-ci ildə erməni quldurlarının atdıqları qrad mərmisi Almaz xanımın qardaşı Hökmdarın yaşadığı Ağdamdakı evlərinə düşmüşdür. Nəticədə Hökmdar ağır yaralanmış, ev isə yararsız vəziyyətə düşmüşdür.

Uzun müddət müalicə olunan Hökmdar hal-hazırda I qrup əlil olsa da, çox sağlam insanların görmədiyi sənətlə rəssamlıqla məşğuldur. Eplepsiyadan əziyyət çəkən Hökmdar istedadlı rəssamdır. Yəqin ki, bu haqda ayrıca yazmağına dəyər. Bir daha xatırladıram ki, İbrahim Əhmədpur üç körpə övladını vəfalı həyat

yoldaşını Almaz Zeynalovanın ümidinə qoyaraq ön cəbhəyə, döyüşün ən qızğın nöqtələrinə getmiş və erməni quldurlarına qarşı mətinliklə mübarizəyə aparmışdır. Azərbaycanın Milli Qəhrəmanı Asif Məhərrəmovun batalyonunun tərkibində növbəti hücum zamanı igidliklə şəhid olmuşdur. II qrup Əlil Ədalət Məhərrəmov şahidi olduğu o acı illəri ürəkağrısı ilə qələmə almışdır. Almaz Zeynalova özündə cəsarət tapmış, 3 körpə övladını böyütmək naminə mübarizə aparmışdır.

"Qarabağ", "Azərbaycan ordusu", "Xəzərin keşiyində" qəzetini "Şəhidlər unudulmur" rubrinasını müntəzəm hazırlamaqla cəbhə bölgələrindən, şəhid ailələrindən, onlara göstərilən diqqət və qayğıdan və lazım gələndə bəzi məmur özbaşınalığını da yazıb tənqit etməklə jurnalist kimi fəaliyyət göstərmişdir. Şəhid Ailələrinə Sosial Yardım ictimai birliyini yaratmaqla uzun müddətdir ki, bu sahədə səmərəli fəaliyyət göstərir, layihələr hazırlayır, möhtəşəm tədbirlər həyata keçirir. Tanınmış ictimaiyyətçi olan Almaz Zeynalova övladlarım əsl vətənpərvər ruhda böyütmüşdür.

Bir oğlu cəbhə bölgəsində Rövşən Əhmədpur "N" saylı hərbi hissədə baş leytenant rütbəsində ləyaqətlə xidmət edir.

2014-cü il Almaz xanım üçün çox ağır il olmuşdur.

Evin ikinci oğlu, 28 yaşına təzə qədəm qoymuş sevimli ciyərparası Elçin öz avtomobilində qəzaya uğramışdır. Bu acı kədərdən bərk sarsılan Almaz xanım o

günü xatırlayarkən göz yaşlarını saxlaya bilmir.

– "Elçin, baxmayaraq ki, evin 2-ci oğlu idi, ağsaqqal idi. Tay tuşları, qohumlar da ona hörmətlə yanaşırdılar. Çox səbirli, ağıllı söhbətləri ilə böyük hörmət qazanmışdı.

O mənə həm qardaş, həm ata, həm arxa idi. Bu dərd indidə gənc ananı üzsə də, çalışıram ki, söhbəti başqa səmtə yönəldəm. Amma qurumaq bilməyən o gözlərə baxa bilmirəm:

Almaz xanıma: - Ağdamın Quzanlı kəndinə tez-tez mi gedirsən? Sualını verərkən fikrini başqa səmtə yönəltmək istəyirəm. Şəhid ananın gözlərində vətən yanğısından ümid qığılcımlarını görürəm! Ağdamın mərkəzi sayılan Quzanlı qəsəbəsində görülən tikinti, abadlıq, quruculuq işlərindən fərəhlə danışan Almaz xanım, rayona yeni təyin olunmuş icra başçısı Raquf Məmmədovun qısa bir zamanda gördüyü işləri yada salır:

– Çay evinin həm tikitisində, həm də açılışında Quzanlıda olduq. Bir daha təskinlik tapmaqla bir vaxtlar Ağdam şəhərində tikilmiş çay evinin eyni, oxşarını görərkən çox sevindik- deyə Almaz xanımın çöhrəsi açılır.

Onu da qeyd edim ki, Almaz Zeynalova Azərbaycan Uşaq Fondunun Nəsimi rayon şöbəsinin sədri kimi də səmərəli fəaliyyət göstərir.

Bu məğrur ana şəhid ailələrinə hər zaman qayğı göstərir.

Söhbət əsnasında vaxtilə Azərbaycanın Milli

Qəhrəmanı Allahverdi Bağırovun batalyonunda döyüşmüş və Pircamal Ağdamın igid oğulları tərəfindən alınarkən həmin ərazidə komendatı olmaqla ən qızğın döyüşlərdə iştirak etmiş qardaşım Vaqif Allahverdiyev Ağdamın Quzanlı kəndindən zəng edir. Ona telefonda sual verirəm: Vaqif, Xındırıstanda yaşayan İnqilab Əhmədpuru tanıyırsan?

Vaqif də tez dillənir:

– Yaxşı tanıyıram. I qrup əlildir. Qarabağ və Şəfəq komandalarında futbolçu olub. Qardaşının biri də döyüşdə şəhid olub. İgid oğul idi.

Bu sözləri eşidən Almaz xanım göz yaşlarını çilovlaya bilmir və ümüidini də unutmur.

Artıq Ağdamın 188 min nəfər əhalisinin 90 mini doğma torpaqlarımızda məskunlaşmışdır. Minlərlə insan düşmənlə üzbəüz olan kəndlərə dönmüşdür, torpağa bağlanmışdır. Bu insanlar öz doğma yurdunun bir kəsik torpağında qorxusuz olaraq qurub-yaradır, cəsarətlə, sabaha tükənməz inamla yaşayır. Bu inamın kökü isə dövlətimizin günbəgün artan hərbi, siyasi, iqtisadi qüdrəti ilə bağlıdır.

Bu gün Ağdamlıları bir amal, bir məqsəd birləşdirir, işğal altında qalan torpaqlarımızın tezliklə azad edilməsi və onların möhtərəm prezidentimizin rəhbərliyi altında öz doğma ocaqlarına qayıtmaqla firavan həyata başlamaq amalı və istəyi: O gün uzaqda deyil. Ağdamın ağ, toy-busata günləri yaxındadır."

**P.S.** Azərbaycanda elə bir ailə olmaz ki, əzizlərindən, qohum və dostlarından biri də olsa, Qarabağ

müharibəsində şəhid olmasın. Şəhidlər bizim qürur mənbəyimizdir. Şəhidləri ağlamazlar. Çünki, onlar Allahın dərgahında ən yüksək məqamlarda bərqərar olublar. Şəhidlik zirvəsinə çatmaq hər kəsə nəsib olmur. Şəhidə heç sorğu-sual da olunmur. Şəhidlər hər zaman pak və təmizdir.

O paklıq naminə, biz nəyin bahasına olursa, olsun özümüzdə güc tapıb, birləşib, möhkəmləşib, Ali Baş Komandanımızın rəhbərliyi, ordumuzun gücü sayəsində Qarabağımızı, Ağdamımızı, Şuşamızı, Kəlbəcərimizi, Qubadlımızı, Zəngilanımızı, Cəbrayılımızı, Füzulimizi, Laçınımızı erməni quldurlarından təmizləməliyik. Buna bizim həm gücümüz, həm haqqımız, həm də qeyrətimiz çatar. Şəhidlərimizin qanı yerdə qalmamalıdır. Yoxsa gələcək nəsil bizi lənətləyəcəkdir.



## *Almaz Babayeva və Əzizə Bayramova*

*Şəhid İbrahimin bacıları*

Şəhid İbrahimin bacıları qardaşları haqqında ürək ağrısı ilə danışdılar. Onlar qeyd etdilər ki, kiçik yaşlarında olan zaman ataları Səfər kişi vəfat etmişdi. Ağırlıq İbrahimin üzərinə düşmüşdü, ailənin bütün qayğılarını İbrahim çəkirdi. Bacılardan Almaz xanım dedi - “Bizim böyüməyimizdə, təhsil almağımızda, hətta ailə qurduqdan sonra üzərimizdə zəhməti böyük olub İbrahimin. Həm ata, həm də qardaş idi bizə. İbrahim vətənpərvər olduğu üçün biz onunla fəxr edirdik. O, heç vaxt döyüşdən bizə danışmazdı. Amma bir dəfə biz onu məcbur etdikdən sonra o, Ağdərə və Daşaltı əməliyyatından danışdı. Biz sevindik ki, bizim belə vətəni sevən, igid, cəsur qardaşımız var. Allah qardaşımıza rəhmət etsin, balalarını xoşbəxt etsin. Qardaşımın yadigarı Vətənini sevən, vətənpərvər Almaz xanıma səbir və can sağlığı versin”.


ДОМ
ЧАЯ



# ŞƏHİD AİLƏSİNİN VƏTƏN SEVGİSİ



# ŞƏHİD AİLƏLƏRİ DÖVLƏTDƏN NƏ İSTƏYIR?

**İctimai birliyin rəhbəri diqqət və qayğıdan kənarda qaldıqlarından şikayətlənir**

***Almaz Zeynalova: «Şəhidin uşaqları 18 yaşı tamam olandan sonra şəhid ailəsi statusunu daşımır»***

*Azərbaycanın ərazi bütövlüyü və Konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə fiziki sağlamlıqlarını itirərərək əlil olmuş vətəndaşların və şəhid ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır.*

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, 2004-2012-ci illərdə 4 mindən çox mənzil inşa olunaraq əlil və şəhid ailələrinə təqdim edilib. Bildirək ki, bu vaxta qədər, ümumilikdə 5 minə yaxın əlil və şəhid ailəsi mənzillə təmin olunub, kəndlərdə həyətyanı sahəsi olan 750-dək fərdi ev inşa edilərək müharibə əlillərinə verilib. Qeyd edək ki, ölkə rəhbərinin müvafiq tapşırığına əsasən, əlil və şəhid ailələri üçün mənzil tikintisi xeyli sürətlənib. Əgər 1997-2007-ci illərdə, yəni on il müddətində 2200-ə yaxın mənzil istifadəyə verilmişdisə, son 5 ilə yaxın müddətdə bu rəqəm 5 minə çatdırılıb. Başqa sözlə, 1997-ci illə müqayisədə əlil və şəhid ailələri üçün inşa olunan mənzillərin illik sayı 10 dəfəyə

yaxın artıb. Belə ki, hazırda hər il orta hesabla 700-dən çox mənzil inşa olunaraq müharibə əlilləri və şəhid ailələrinin istifadəsinə verilir. Son illər çoxmənzilli binaların inşasına xüsusi diqqət yetirilir. Əgər əvvəllər daha çox ikimərtəbəli 16 və 4 mərtəbəli 36 mənzilli binalar inşa olunurdusa, son illər 9 mərtəbəli 81 mənzilli və 12 mərtəbəli 96 mənzilli binaların inşası da geniş vüsət alıb.

**Qüvvədə olan qaununvericiliyə əsasən...**

Şəhid ailələrinin mənzil-məişət, məşğuliyyət, təhsil şəraitinin yaxşılaşdırılması üçün bundan sonra görülə biləcək işlərin nədən ibarət olması ilə bağlı "Şəhid Ailələrinə Sosial Dəstək" İctimai Birliyinin rəhbəri Almaz Zeynalovanın fikirlərini öyrəndik. Söhbətimizə qüvvədə olan qanunvericiliyə əsasən şəhid ailələrinə hansı güzəşt və imtiyazlarının verilməsindən başladıq: "Qüvvədə olan "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" qanunla bu şəxslər şəhid ailəsinin üzvləri hesab edilir: ər-arvad, valideyn, 18 yaşına çatmamış uşaqlar, 18 yaşına çatanadək sağlamlıq imkanlarının məhdudluğu müəyyən olunmuş 18 yaşından yuxarı əlil uşaqlar, qardaşlar və bacılar, uşaq evlərində tərbiyə olunanlar; texniki peşə, orta ixtisas məktəblərində və ali təhsil məktəblərində təhsil alanlar isə bu məktəbləri bitirənədək, lakin ən çoxu 23 yaşına çatanadək; qanunla onları saxlamalı şəxs yoxdursa babalar və nənələr.

Öncə adını çəkdiyim qanunda Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğ-

runda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və qanunvericiliklə müəyyənləşdirilmiş qaydada ölmüş hesab edilən şəxslərin və onların ailələrinin statusunu və sosial müdafiəsini tənzimləmək məqsədinə xidmət edir. Qanunda göstərilir ki, şəhid Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və qanunvericiliklə müəyyənləşdirilmiş qaydada ölmüş hesab edilən şəxsdir".

**Təminatlar...**

Almaz Zeynalova bildirir ki, «şəhid ailəsi» statusunu almış ailənin üzvlərinə müxtəlif təminatlar verilir: "Bu təminatlardan biri ailə başçısını itirməyə görə əmək pensiyası ilə bağlıdır. Hansı ki, bu təminat "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tənzimlənir. Bir başqa güzəşt isə valideynlərdən biri həlak olduqda onların hər uşağına 16 yaşı (şagirdlər üçün 18 yaş) tamam olanadək müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunan məbləğdə aylıq müavinət təyin edilməsidir.

Qanunvericiliyə əsasən işçilərin sayı və ya ştatı ixtisar edilərkən işdə saxlanmaqda onlara üstünlük verilir. Həkim reseptləri üzrə dərman almaq üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olmuş qaydada və məbləğdə müavinət verilir; tibb müəssisələrinin göndərişi ilə ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada

təmin edilirlər. Qanunvericiliyə uyğun olaraq şəhid ailələri yaşayış sahəsi ilə təmin edilirlər. Bu təminat hökumətin müəyyənləşdirdiyi qaydada yerli icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir. Mənzil şəraitini yaxşılaşdırmağa ehtiyacı olan şəhid ailələri yaşayış sahəsi ilə birinci növbədə təmin olunurlar. Şəhid ailəsinə onun arzusuna görə fərdi mənzil tikintisi üçün məqsədli güzəştli asudə, yaşadığı yerdən asılı olaraq qanunvericilikdə nəzərdə tutulmuş ölçüdə torpaq sahəsi, habelə bağçılıq birliyinə (kooperativə) qəbul zamanı üstünlük verilir. Şəhid ailəsi xüsusi mülkiyyət əsasında mənzil və ya fərdi ev alarkən, notariat əməliyyatları dövlət rüsumu ödənilmədən aparılır".

**Qanunvericilikdə dəyişiklik olması üçün müraciət olunub**

"Şəhid Ailələrinə Sosial Dəstək" İctimai Birliyinin rəhbərinin sözlərinə görə, qanunvericilikdə nəzərdə tutulan hallar arzuolunan olsa da, gerçəklik qanunla uyğun gəlmir: "Bu gün ölkəmizdə şəhid ailələrinə münasibət heç də qənaətbəxş deyil. Uzun illər keçməsinə baxmayaraq, indi də müharibənin dəhşətini, ağrı-acısını yaşayanlardan danışarkən şəhid ailələrini unutmaq olmaz. Amma təəssüf ki, bu gün yalnız və yalnız şəhid ailələrinin üzləşdiyi problemlərdən söhbət açılmır. Onlara göstərilən diqqət, qayğı yetərli deyil. İtkin düşmüş və şəhid olmuş hərbi qulluqçuların ailələrinə 11 min manat müavinət verilir. Çox ailələr bundan xəbərsizdi. Amma sonradan bunu alanlar ol-

du. Bu məsələ ilə bağlı bizə müraciət edənlər çox olur. Çalışırıq ki, belə məsələləri məhkəmə yolu ilə həll edək. Bu gün şəhid ailələrinə imtiyazlar tətbiq olunmur. Qanunda çox ciddi boşluqlar var. Şəhidin uşaqları 18 yaşı tamam olandan sonra şəhid ailəsi statusunu daşımır. Avtomatik olaraq ləğv olunur. İndi bu məsələnin üzərində çalışırıq. Müvafiq quruma müracilətlər etmişik. Bir qeyri-hökumət təşkilat olaraq şəhid ailələri bizə müraciətlər edirlər. Məlum olur ki, bununla bağlı şəhid ailələri çox narahatdırlar".

**"Mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün müəyyən tədbirlər görülür"**

Almaz Zeynalovanın sözlərinə görə, şəhid ailələrinin övladlarının məşğuliyyət problemləri acı gerçəklikdir: "Baxın, əksər şəhid ailələrinin övladları ali təhsillidir. Ancaq nə olsun ki? İş problemi var. İşverənlər şəhid ailəsinin övladını nəzərə almırlar. Məşğuliyyət məsələsində heç bir güzəşt yoxdur. Biz müharibə şəriatində olan ölkəyik. İkinci Qarabağ müharibəsi hər zaman başlaya bilər. Şəhid ailələrinə olan münasibət arzuolunan olmalıdır ki, başqaları şəhid olmaqdan, yaxud şəhid ailəsi olmaqdan qürur duya bilsinlər. Problem bununla bitmir. Bəli, mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün müəyyən tədbirlər görülür. Ancaq bu o demək deyil ki, şəhid ailələrinin bu məsələdə də problemi yoxdur. Bəli, var! Yerli icra hakimiyyətlərində şəhid ailələrinə mənzil verilməsi üçün onları qeydiyyata almalıdırlar. Mənzil tikilməsi üçün torpaq sahəsi ayrımalıdır. Əksər

rayonlarda bu iş normal başa çatdırılıb və davam etdirilir. Ancaq ümumi problem olaraq qalır. Məsələn, Nəsimi Rayon İcra Hakimiyyəti hələ də şəhid ailələri üçün tikiləcək mənzil üçün torpaq sahəsi ayırmayıb. Mən qeyri-hökumət təşkilatının rəhbəri olaraq bu quruma müraciət etmişəm. Onların sözlərinə görə, yerli icra hakimiyyətinin ərazisində boş torpaq sahəsi yoxdur ki, mənzil tikintisi üçün torpaq sahəsi ayrılsın. Biz araşdırma apardıq, məlum oldu ki, boş torpaq sahəsi var. Həmin sahəni müəyyənləşdirib Nəsimi Rayon İcra Hakimiyyəti müraciət etdim. Ancaq müraciətimiz cavabsız olaraq qalmaqdadır".

**"Ən azı şəhid anası gedib o sözü oxuyanda heç olmasa itirdiyinə heyfislənməsin"**

İctimai Birlik rəhbərinin sözlərinə görə, şəhid ailələrinin bir problemi isə dövlət qurumlarının qəbuluna düşməklə bağlıdır: "Bu məsələ ilə bağlı müraciətlər göndərmişik ki, artıq icra hakimiyyətlərində, idarə və müəssisələrdə yazılsın vurulsun ki, şəhid ailələri növbədənkənar qəbul olunsun. Ən azı şəhid anası gedib o sözü oxuyanda heç olmasa övladını itirdiyinə heyifslənməsin. Əvvəllər belə idi. Birdən birə bu da yığışdırıldı. O məsələ ilə bağlı müraciət etmişik amma cavab gəlməyib. Belə məsələlər də ictimaiyyət qarşısında qaldırılmalıdır.

Təəssüf ki, şəhid ailələrinə diqqət və qayğı arzuolunan səviyyədə deyil. Şəhid ailələrinə prezident təqaüdü 165 manatdır. Heç bir dövlətdə belə bir şey yoxdur. Bu, bir şəhid ailəsi üçün ayrılıb. Bu, həm ata,

həm ana, həm də şəhidin yoldaşı arasında bölünür. Biz rayonlarda olmuşuq. Rayonlarda yerli təşkilatlarımız fəaliyyət göstərir. Bizə müraciətlər nəticəsində aydın olur ki, bu təqaüdə görə konfiliktlər yaşanır. Verilən təqaüd bazar şərtlərinə uyğun deyil".

Qeyd edək ki, hazırda şəhid övladlarına müvafiq olaraq, 16 və 18 yaşlarına qədər 15 manat sosial müavinət, əmək pensiyası hüququ olmayan ailələrə kommunal xidmətlərinin ödənilməsi üçün 12 manat, əmək pensiyasına çıxanlara isə əlavə olaraq 72 manat 20 qəpik pul ödənilir. 2012-ci ildə 13380 şəhidin 18 min 350 ailə üzvünə 24,4 milyon manat, şəhidin 180 nəfər uşağına 32,4 min manat, 2200 nəfər şəhid ailəsinə isə 333,9 min manat müavinət ödənilib.

***Ramid***
*28/8/2013*
*bizimyol.info/news/saiti*



# AZƏRBAYCAN UŞAQ FONDU "UŞAQ İLI" İLƏ ƏLAQƏDAR GENIŞ TƏDBİRLƏR PLANI HAZIRLAYIB

Ötən ay, Azərbaycan Uşaq Fondu İdarə Heyətinin 2009-cu ilin "Uşaq ili" elən edilməsinə həsr olunmuş geniş tərkibli iclası keçirildi.

Fondun sədri, akademik İsmayil İbrahimov öz çıxışında; AUF-un fəaliyyəti ilə bağlı hesabat məruzəsində konkret olaraq ötən ildə görülmüş işləri təhvil etdi. O qeyd etdi ki, bu təşkilatın ilk illərdə formalaşmasında Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Və bu gün də bu ideyaların layiqli davamçısı, Respublikanın prezidenti möhtərəm İlham Əliyev bu ənənələri dəvam etdirir. Buna əyani misal olaraq Prezident İlham Əliyevin 22 dekabr 2008-ci il tarixli sərəncamına əsasən, 2009-cu ilin ölkəmizdə "Uşaq ili" elan edilməsidir.

Azərbaycan Uşaq Fondu hər zaman olduğu kimi 2008-2009-cu ildə də öz fəaliyyətini ermənilərin təzyiqinə məruz qalaraq - Azərbaycanın Dağlıq Qarabağ münaqişəsi nəticəsində respublikada valideynlərin himayəsinidən məhrum olmuş yetim uşaqların hüquqlarının müdafiəsi istiqamətində aparır.

Fondun xeyriyyə işləri əsasən üç proqram üzrə aparılır:

1) Yetim uşaqlar
2) Uşaqların təhsil və tərbiyəsi
3) Uşaq sağlamlığı

Ümumillikdə Fondun 64 yerli şöbələri fəaliyyət göstərmiş, yalnız 35 şöbənin hesabatı daxil olmuşdur. Bu hesa-batlar əsasında 2008-ci ildə proqram üzrə yalnız pul vəsaiti ilə 279582 manat məğləbində xe-yiriyyəçilik işləri aparılmış və 22664 uşaq əhatə olunmuşdur.

Məlumdur ki, son illər fondun fəaliyyəti əsas eti-barilə yerli şöbələr tərəfindən aparılır.

Tədbirin aparıcısı Adilə xanım Namazova sözü AUF sədrinin birinci müavini Aqil Məhərrəmova verdi:

O, bütün rayon fəallırına dərin minnətdarlığını bil-dirərək qeyd etdi ki, Rayon İcra Hakimiyyətləri Azər-baycan Uşaq Fondunun yerli şöbələrinə faydalı kö-məklik edirlər. Mən, Fondun xeyriyyəçilik işlərində iştirak edən, yardım göstərən bütün İcra Hakimiy-yətləri rəhbərliyinə, şöbələrin xeyriyyəçilik işlərində yaxından iştirak edən, təşkilatlara, fərdi insanlara AUF adından böyük minnətdarlığımızı bildirəm. Bütün bunlara yanaşı Fond hökumət, qeyri hökümət və beynəlxalq təşkilatlarla əlaqələrini “ İctimai, Qeyri Hökümət Təşkilat və Fondlar” haqqında qanun çərçi-vəsində aparır. Fondun sədri İ.Ə.İbrahimov Nazirlər Kabinetinin yeniyetmələr arasında aparılan daimi komissiyasının üzvüdür.

Fond Respublikada fəaliyyət göstərən BMT-nin YUNİSEF şöbəsi ilə əlaqələr yaratmışdır. Bakı şəhərində "SOS-Uşaq kəndi"- Assosiasiyası fəaliyyət göstərir. Onun tərkibində olan 15 ailəvi uşaq evlərində 15 yaşına qədər yetim uşaqlar daimi yaşayır, təhsil alır vətərbiyə olunurlar.

Fondun həmsədri, akademik A.Namazova bu assosiasiyanın rəyasət heyətinin üzvüdür və onun fəaliyyətinə səmərəli köməklik göstərir.

Fondun sədrinin I müavini Flora Səlimova QHT Forumunun idarə heyətinin üzvüdür. Fondun sədr müavini, uşaq Berpa Müalicə Mərkəzinin baş həkimi N.Həsənova YUNİSEF-in respublikadakı nümayəndəliyi ilə aparılan proqramların həyata keçirilməsində fəal iştirak edir.

Fond hər il öz fəaliyyəti haqqında Assosiyaya ətraflı hesabat təqdim edir. 2008-ci ilin oktyabrında Assosiyanın növbəti illik iclası keçirildi. İclasda sədr və sədrin I müavini A. Məhərrəmov iştirak etmişdir. Qeyd etmək lazımdır ki, Assosasiya keçmiş sovet məkanının 12 respublikasının Uşaq fondlardarını öz tərkibində birləşdirir. Onların fəaliyyəti haqqında hər il assosiasiya tərəfindən xüsusi hesabat kitabı buraxılır.

Azərbaycan Uşaq Fondu və yerli şöbələri 2009-cu ilin yanvar-fevral aylarında "Uşaq ili" elən olunması ilə bağlı tədbirlər planını hazırlamışlar. 2009-cu illin I və II rübündə AUF və yerli şöbələri BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyası ilə bağlı tədbirlərin həyata keçirilməsi, müvafiq maarifləndirmə tədbirlə-

rinin gücləndirilməsi istiqamətində mühüm işlər görmüş və görməkdədirlər.

Fondun şöbələri mütəmadi olaraq uşaqların yaradıcılığının, birliklərinin artırılması və intellektual inkişafına yönəldilmiş tədbirlərin keçirilməsini təşkil etməkdədirlər. Eyni zamanda, Milli mənəvi dəyərlərin qorunub-saxlanması məqsədilə məktəblərdə və s. marifləndirmə işləri aparılır. Bundan başqa Fondun şöbələri tərəfindən il ərzində istedadlı uşaqların aşkara çıxarılması, uşaqlar arasında yarışlar, fənn olimpiadaları, xüsusi tematik mövzular üzrə müsabiqələrin keçirilməsi və s..

Xüsusi plan əsasında "Uşaq ili" ilə əlaqədar xeyriyyə tədbirlərinin təşkili, yeni dərs ili " Bilik günü", Dünya Azərbaycanlılarının Həmrəylik Günü, "Yeni il", "Novruz" bayramı", "Qələbə" günü, respublika Günü, 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü və s.. iyirmidən artıq 2009-cu ilin "Uşaq ili" elan olunması ilə bağlı AUF -un tədbirlər planını yüksək səviyyədə və ləyaqətlə yerinə yetirilməsi Fondun şöbələrinə həvələ olunmuşdur.

Buna əsasən demək olar ki, rayon şöbələri uşaqların təlim – tərbiyəsi, inkişafı, mədəniyyəti, onların hüquqlarının müdafiəsi istiqamətinə yönəldilmiş tədbirlərin mütəmadi olmasını təmin edirlər. Fondun Bakı şəhəri və onun Binəqədi, Nəsimi rayon, həmçinin Ağcabədi, Gəncə, Qəbələ,Qazax, Ağsu, Şəki, Qax, Sabirabad, Lənkəran, Tovuz və s.. rayon, şəhər şöbələri daha fəal olmuşlar. Yerli şöbələr 2009-cu ildə öz işlərini "Uşaq

ili" çərçivəsində davam etdirəcəklər.

AUF–un Nəsimi rayon şöbəsinin sədri Almaz xanım Zeynalova, öz çıxışında gördüyü işlərin həcmindən, məsuliyyətindən və bu sahədə ona dəstək olan xeyirxah, fədakar insanların çəkdiyi zəhmətlərini yüksək dəyərləndirərək, toplantı iştirakçılarına məlumat verdi.

Digər çıxış edənlər də AUF–un ayrı-ayrı istiqamətlərindən danışıb, onun rəhbərliyinə sabahımız olan uşaqların xoşbəxt gələcəyi naminə bundan sonrakı işlərində uğurlar dilədilər. Doğurdan da onlar hər cür qayğıya layiqdirlər.

**_Reyhan Çələbi_**
*"İctimai fikir" qəzeti № 02 (07)*
*30 may 2009-cu il*



# NİZAMİ ADINA MƏDƏNİYYƏT VƏ İSTİRAHƏT PARKINDA UŞAQLAR ƏSİL BAYRAM SEVİNCİNİ YAŞADILAR

Azərbaycan Uşaq Fondunun ilk illərdə formalaşmasında Ümumilli Lider Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Və bu gün də bu ideyaların layiqli davamçısı Respublikanın prezidenti möhtərəm İlham Əliyev bu ənənələri dəvam etdirir. Buna əyani misal olaraq Prezidenti İlham Əliyevin 22 dekabr 2008-ci il tarixli sərəncamına əsasən 2009-cu ilin ölkəmizdə "Uşaq ili" elan edilməsidir.

Təməli, Ümummlli Lider Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan Uşaq Fondunun hazırki sədri, akademik İsmayıl İbrahimovdur. İ. İbrahimovun AUF fəaliyyəti ilə bağlı bu ilin aprel ayında keçirilən hesabat məruzəsindəki çıxışında, konkret olaraq ötən ildə görülmüş işlərdən Nəsimi Rayon şöbəsinin fəaliyyətinin ictimaiyyətimiz və rəhbərlik tərəfindən yüksək dəyərlərindildiyi bildirmişdir.

Bu dəfə də Azərbaycan Uşaq Fondunun Nəsimi rayon şöbəsinin sədri Almaz xanım Zeynalovanın, onun köməkçisi Elmira Ağayevanın təşkilatılığı və Xətai rayonundakı Nizami adına Mədəniyyət və İstirahət parkının direktoru Alfred Quliyevin böyük

qayğısı ilə 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi günü ilə əlaqədar uşaqların əyləncəli bayram tədbiri həyata keçirildi.

Bu tədbirdə ermənilərin təziyiqinə məruz qalaraq – Azərbaycanın Dağlıq Qarabağ münaqişəsi nəticəsində respublikada valideynlərin himayəsindən məhrum olmuş qaçqın və məcburi köçkün, veteran, şəhid ailələrindən olan uşaqlar, kimsəsiz, ata-ana nəvəzişindən məhrum olmuş uşaqlar iştirak edirdi. Bu uşaqların hədsiz sevincini hiss etmək üçün yalnız burada olmaq olmaq lazım idi. Stolun üzərinə düzülmüş ləziz şərq şirniyyatlarının hazırlatdırıb, zamanında bu uşaqların sevincinə şirinlik qatan, onlara sanki yenidən bahar bayramı ovqatını yaşadan insanlara öz minnətdarlığımızı bildiririk. Şəkərbura, paxlava, şirin qoğal və s. Şirniyyatların təşkilinə görə həm uşaqlar, həm də təşkilatçıları “ ÇUDO Peçko” nun Prezidenti Pərviz bəyə və Vitse Prezidenti Vera xanıma xüsusi təşəkkürümü bildirdilər. Eyni zamanda, şirin dondurma hədiyyəsi ilə uşaqları sevindirən “Dondurma” sexinin direktoru Adil müəllimə də uşaqlar çoxlu-çoxlu minnətdarlığını bildirdilər. Balaca fidanların bayram ovqatına baxdıqca adamın ürəyi fərəhdən riqqətə gəlirdi. Bu uşaqlar üçün sanki, dünya yalnız sevincdən ibaretdir. Çünki bu uşaqların qayğısına yalnız dövlət deyil, ictiaiyyətimiz də biganə qalmır. Həmin günün xoşbəxtliyi həm də ondadır ki, bu bayramı bütün yer üzünün uşaqları qeyd edirlər. Atalı-analı, ata-ana nəvazişindən məhrum olan bütün uşaqlar üçün bu

sevinc, bu şənlik qeyd olunur. Bu belə də olmalıdır. Axı, bu günün körpələri, sabahın valideyinləri olacaqlar. Əbəs yerə deyilmir ki, "Uşaqlarlar bizim gələcəyimizdir". Bu gələcəyi qorumaq, düzgün istiqamətləndirmək isə cəmiyyətimizin, biz insanların üzərinə düşür. Bu günün "Luna Park" dakı yaşanan uşaqlar üçün bayram tədbirini yalnız "SPACE" Teleradio yayımları şirkətinin əməkdaşları lentə aldılar. Bu xoşbəxt anları yaşayan uşaqların sevincinə onlar da şərik çıxdılar. Şöhbətləşib, uşaqların ürək sözlərini onların öz dilindən eşitdilər və geniş ictimaiyyətə təqdim etdilər. Allah hər bir xeyir əməlin qarşılıqlı əvəzini versin. Bir sözlə, NİZAMİ ADINA MƏDƏNİYYƏT VƏ İSTİRAHƏT PARKINDA UŞAQLAR ƏSL BAYRAM SEVİNCİNİ YAŞADILAR...

Bu uşaqlar üçün bəzədilmiş süfrədən daha maraqlı olan isə Alfred müəllimin rəhbərliyi ilə təşkil olunan pulsuz atraksionlar, yelləncəklər və s.oldu. Uşaqlara bütün bu xidmət sahəsində dəstək olan insanlara iaşə ocağının sahibinə, hər bir kiçik də olsa mənəvi-maddi dəstək olan insanlara yalnız təşəkkürlərimizi, bir də xoş arzularımızı çatdıra bilirik. Gözəl yaşıllıq, abadlıq və yüksək iaşə xidmətlərinin təşkilinə görə isə əlbətdtə Ki, bu uşaqlarının yaxınları olaraq parkın rəhbəri A.İ Quliyevə və AUF-nun rəhbərliyinə dərin təşəkkürlərimizi bildirdiririk. Sağ olsunar ki, bu günün sevincini, xoşbəxtliyini bu uşaqlara yaşada bildilər. Dünyanın hər yerində xoşbəxt olsun uşaqlar! Nə gözəl duyumdur. Görəsən bu həqiqətənmi

belədir?..

Bu Park çox gözəldir, amma yol boyu çəkilən bu hündür hasarlar olmasa, bizə elə gəlir ki, daha yaxşı və rahat olar. İnsanlar buranı tapmaqda çətinlik çəkirlər. Bax, elə bu gün bura gələn uşaqlar kimi valideynlər də çox əziyyət çəkir, parkın yanından keçən hətta taxsi sürücüsü belə buranı tapa bilmir; - deyə bir çoxları bu gileyi də mətbuat nümayəndələrinə etdilər. Biz yazıq, təki gələcəyimiz olan uşaqların səsinə, valideynlərin etirazına, insanların səmərəli istirahətlərinə biganə qalanlar olmasın.

***Gülnarə Əmirquliyeva***
*"Ulu məkan qəzeti" № 03(20)10*
*iyun 2009-cu il*



# AZƏRBAYCANDA UŞAQ İLİ BAŞA ÇATSA DA UŞAQLARA OLAN DİQQƏT BAŞA ÇATMADI

***Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının ofisində "Dünya Ana və Uşaqları" İctimai Birliyi və Azərbaycan Uşaq Fondu Nəsimi Rayon şöbəsinin təşkilatçılığı ilə uşaqlara Yeni hədiyyələri verildi.***

"Dünya Ana və Uşaqları" ictimai Birliyin sədri Dünyaxanım Əliyevanı xeyriyyəçi, xeyirxah bir insan kimi çoxları yaxşı tanıyır. Və bütün elədiklərinin müqabilində hər zaman insanların xoş rəftarından, sağ ol deməsindən başqa bu insanın heç bir təmənnaya həqiqətən də ehtiyacı yoxdur. Reklamdan uzaq olmağı, insanlara əlindən gələn maddi-mənəvi köməklik etməyi sevərək edən Dünyaxanım Əliyeva cəmiyyətimizin fəal aparıcı qüvvələrindəndir. Onun namizədliyi ayrı-ayrı siyasi qurumlar tərəfindən parlament və indiki bələdiyyə seçkilərində də irəli sürülmüşdür. İxtisasca idarəçilik sahəsini bitirən bu xanım, sözün əsl mənasına bu sistemin gözəl mütəxəssisidir. Odur ki, onun üçün qısa bir zamanda istər cəbhə bölgələrinə, istər kimsəsiz qocalar və uşaq evlərinə getmək, belə tədbirləri keçirmək asan olmaqla bərabər şərəflidir.

Eyni fikirlərin çox hissəsini Almaz xanıma da şamil etmək olar. Azərbaycan Uşaq Fondu Nəsimi rayon şöbəsini sədri Almaz Zeynalova dəfələrlə onun digər təşkilatı olan ŞASY İB-nin xətti ilə əsgər və zabitlərimizlə görüşlər keçirmiş, bir sıra xeyirxah missiyaların müəllifi və təşkilatçısı olmuşdur. Odur ki, onun cəmiyyətimizdəki rolu əvəzsidir. Belə ki, dünyada uşaq sevincindən başqa gözəl hiss yoxdur deyən Almaz xanım, hər dəfə istər bayram, istərsə də adi günlərdə uşaqları tez-tez bayram sovqatları hədiyyələrlə təbrik edir, şənliklərə, əyləncələrə, teatra və s.. yerlərə aparmaqlasevindirməkdən zövq alır, mənəvi rahatlıq tapır. Elə bu dəfə də Yeni ilin ilk astanasında, o neçə-neçə imkansız, qaçqın – məcburi köçkün ailələrinin uşaqlararını, ata və yaxud ana himayəsindən məhrum olan uşaqları məktəb ləvazümatı ilə, körpələrə bələklər, çanta, geyim və s... hədiyyələrlə sevindirdi.

***Elmira.***
*"Elm və zəka" qəzeti № 01 (145)*
*11 yanvar 2010-cu il*



# UŞAQLAR ƏSL BAYRAM SEVİNCİ YAŞADILAR

***Bu uşaqlar üçün dünya yalnız sevincdən ibarətdir.***

Azərbaycan Uşaq Fondunun Nəsimi rayon şöbəsinin sədri Almaz xanım Zeynalovanın, onun köməkçisi Elmira Ağayevanın təşkilatçılığı və Xətai rayonundakı Nizami adına Mədəniyyət və İstirahət parkının direktoru Alfred Quliyevin böyük qayğısı ilə 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi günü ilə bağlı əyləncəli bayram tədbiri həyata keçirilib.

Tədbirdə ermənilərin təzyiqinə məruz qalaraq-Azərbaycanın Dağlıq Qarabağ münaqişəsi nəticəsində respublikada valideynlərin himayəsindən məhrum olmuş qaçqın və məcburi köçkün, veteran, şəhid ailələrindən olan uşaqlar, kimsəsiz, ata-ananəvazişindən məhrum olmuş uşaqlar iştirak ediblər. Stolun üzərinə düzülən ləziz şərq şirniyyatlarını hazırlayıb, uşaqların sevincinə şirinlik qatan, onlara sanki yenidən bahar bayramı ovqatını yaşadan insanlara öz minnətdarlığımızı bildiririk.

Balaca fidanların bayram ovqatına baxdıqca, adamın ürəyi fərəhdən riqqətə gəlir. Bu uşaqlar üçün dünya yalnız sevincdən ibarətdir. Çünki, bu uşaqların qayğısına yalnız dövlət deyil, ictimaiyyətimiz də biganə qalmır. Həmin günün xoşbəxtliyi həm də ondadır ki, bu bayramı bütün yer üzünün uşaqları

qeyd edirlər. Atalı-analı, ata-ana nəvazişindən məhrum olan bütün uşaqlar üçün bu sevinc, bu şənlik qeyd olunur. Əbəs yerə deyilmir ki, "Uşaqları istiqamətləndirmək isə cəmiyyətimizin, biz insanların üzərinə düşür".



Bir sözlə, Nizami adına Mədəniyyət və İstirahət parkında uşaqlar əsl bayram sevinci yaşadılar.

Bu uşaqlar üçün bəzədilmiş süfrədən daha maraqlı, Alfred müəllimin rəhbərliyi ilə təşkil olunan pulsuz atraksionlar, yellencəklər və s.. oldu. Uşaqlar bütün bu xidmət sahəsindədəstək olan insanlara iaşə ocağının sahibinə, hər bir kiçik də olsa mənəvi-maddi dəstək olan insanlara təşəkkürlərimizi, xoş arzularımızı çat-

dırırıq. Gözəl yaşıllıq, abadlıq və yüksək iaşə xidmətlərinin təşkilinə görə isə parkın rəhbəri A.İ.Quliyeva və AUF-nun rəhbərliyinə dərin təşəkkürlərimizi bildiririk. Sağ olsunalar ki, bu günün sevincini, xoşbəxtliyini bu uşaqlara yaşada bildilər. Dünyanın hər yerində xoşbəxt olsun uşaqlar! Görəsən bu həqiqətənmi belədir?..

***Reyhan Məhərrəmova***
*«Paralel» qəzeti №04 iyun 2009-cu il 109-110(770)*



# ALMAZ ZEYNALOVA (ƏHMƏDPUR) MƏTBUATDA



# DÖRD AY ƏSİRLİKDƏ

Onunla mərkəzi hospitalda görüşdüm. Keçirdiyi bütün əzab-əziyyətlər elə bil sifətinə həkk olunmuşdu. Onun 4 ay erməni əsirliyində qalmasını öz dilindən eşitdim...

Oktyabr ayının 9-da Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranmasının 3 illiyi münasibəti ilə mərkəzi hərbi hospitalda xeyriyyəçi Ülkər Rəsulovanın təşəbbüsü ilə tədbir keçirilirdi. Tədbirdə Hüseyn Hüseynov çıxış etdi və əsirlikdə keçirdiyi ağır günlərdən qısaca danışdı. Onunla ayrılıqda görüşüb söhbət etdim və bu söhbəti heç bir dəyişiklik etmədən oxuculara çatdırmağı özümə borc bildim.

Hüseynov Hüseyn Əlişir oğlu 28 dekabr 1961-ci ildə Beylağan rayonunda dünyaya göz açıb. Sumqayıt politexnik texnikumunu bitirib. Uzun müddət boru prokatı zavodunda işləyib. 1994-cü il aprel ayının əvvələrində hərbi qulluğa çağırılıb. Təlim mərkəzindəki gərgin məşqlərdən sonra onu Füzuli bölgəsinə göndəriblər. Seyidəhmədli, Şükürbəyli, Qaraxanbəyli və aşağı Seyidəhmədli kəndləri uğrunda gedən döyüşlərdə iştirak edib. Son döyüşü isə aprelin 27-də Aşağı Seyidəhmədli kəndi istiqamətində olub. O, bu döyüşdə yaralı vəziyyətdə düşmənlərə əsir düşüb.

**Əsirlik günləri**

Əsirlikdə çəkdiyi ağır işgəncələr Hüseyni çox

zəiflədib, amma başına gələn bütün müsibətlər onun yadında olduğu kimi qalıb. Mən ondan əsirlikdə keçirdiyi ağrılı-açılı günlərdən danışmağı xahiş etdim

-Erməni işğalçılarını qovub kəndlərimizdən geri oturtduq, - deyərək, o, sakit-sakit sözə başladı. Döyüşlər Aşağı Seyidəhmədli kəndinin lap astanasında gedirdi. Aprel ayının 27-də bu yaşayış məntəqəsini düşmənlərdən təmizləmək üçün hücuma keçdik. Gərgin döyüş xeyli davam etdi. İşğalçılar güclü hücümlarımıza tap gətirməyib geriyə qaçırdılar. Onlarının dörd mövqeyinin külünü göyə sovurduq. Əsgərlərimizdən ağır yaralananlar da oldu. Biz yaralıları döyüş meydanından çıxırmaq üçün işə başladıq. Mən sürünə-sürünə lap öndəki yaralıya yaxınlaşdım. Ona bir neçə addım qalmış sinəmin odlandığını hiss etdim. Yerə yıxıldım. Düşmənin atdığı növbəti güllələr əlimdən və ayağımdan dəydi. Bir anın içində quldurlar məni dövrəyə aldılar və sürüyə-sürüyə maşına tulladılar. Maşında bir neçə erməni cəsədi də vardı. Onlar elə həmin Seyidəhmədli kəndi uğrunda gedən döyüşdə bizimkilər tərəfindən öldürülmüş erməni döyüşçüləri idi. Növbəti meyidi maşına atan ermənilər məni təpiklə vurmağa başladılar. Gözləri qızmış dığalar məni vura-vura “Niya hücüma keçmisiniz? Yoxsa kəndlərimizi geri almaq istəyirsiniz? Onu görməyəcəksiniz”, - deyərək qışqırırdı. Düzü aldığım zərbələrdən bir də o vaxt ayıldım ki, artıq xəstəxanadayam. Yanımdakılar ermənicə danışırlar. Sonra öyrəndim ki, Xankəndindəyəm. Erməni həkimləri yaralarımın üzərində başdansovdu cərrahiyyə əməliyyatı aparmışdılar. Ağrıya dözə

bilmirdim. Hə yaxşı ki, Beynəlxalq Qırmızı Xaç Cəmiyyətindən tez-tez gəlib bizə baş çəkirdilər. Onlar gedəndən sonra isə quduzlaşmış daşnaklar xəstəxanaya soxularaq yaralı azərbaycanlıları döyməkdən həzz alırdılar. Biz onları qorxudurduq ki, Qırmızı Xaçının nümayəndələliyinə şikəyət edəcəyik. Bu nümayəndəliyin qorxusu olmasaydı, bəlkə də onlar bizi qan içində boğub öldürərdilər. Həftələrlə yaramın sarğısını da dəyişmirdilər. Elə bu baxamsızlığın nəticəsi idi ki, 4 ay müddətində yaralarım sağalmadı. Əksinə, vəziyyətim daha da ağırlaşdı.

**Alçaldılmış insanlar**

Yaralarım həddindən artıq ağır olduğundan işğalçılar məni o qədər də döymürdülər. Əsir düşmüş, yaralı olmayan yurddaşlarımıza isə olmazın əziyyətlər verirdilər. Onları istədikləri vaxt təhqir edir, döyürdülər. Bəlkə də dünyanın heç bir yerində, heç vaxt insanlar bu qədər alçaldılmayıblar.

Əsirlərin arasında Kəlbəcərdən bir neçə qoca kişi də var idi. Quduzlar onları da vəhşicəsinə döyürdülər. Dünyanın hər üzünü görmüş bu ağsaqqallara verilən zülmü gördükdə damarımda qanım dönürdu. İstəyirdim yaralı-yaralı quldurların üstünə atılım, qocaları bu zülmdən qurtarım. Amma qollarımda qüvvə hiss etməyəndə göz yaşlarıma güc verirdim.

**Əsirlikdə əzab çəkənlər**

Əsir düşərgəsində 41 nəfər yurdaşımız indi də qalır. Onların arasında hərbi əsirlər azlıq təşkil edir. Əksəriyyəti mülki adamlardır. Onlarla tez-tez bir yerə yağılıb dərdləşirdik. Hərə öz dərdindən danışırdı. Füzuli

rayonunun Kurdmahmudlu kəndindən olan Mürvət dayının isə başına gələnlənlər daha dəhşətli idi. Hadisə belə olub. Mürvət kişi eşidib ki, kəndləri düşməndən azad olunub. Ona görə də evinə baxmaq üçün kəndinə gəlib. İşğalçılar onu kəşfiyyatçı bilib tutublar. O ki var döyəndən sonra boğazına kəndir keçirib ağacdan asıblar. Quldurlardan biri isə kəndiri kəsib onu yerə salıb və şüşə ilə qulağını kəsməyə başlayıb. Sonra onu da Xankəndinə gətiriblər. Əsirlikdə mənimlə bir yerdə olan həmyerlilərimizin adlarını çəkmək istəyirəm. (Başqa qəzetin müxbirinə də onların adlarını demişəm). Qoy yaxınları eşidib az da olsa təskinlik tapsınlar. Qubadlıdan Nazim Rəcəbov, Beyləqan rayonunun Dünyamalılar kəndindən Əli Sarıyev, İmişlidən Əlzamin və Rəyasət, Mingəcevirdən Azad Rüstəmov. Bunlardan başqa Sevil və Sevda adlı iki qız uşağı da burada əzab çəkirdi. Hamısının da sinəsində Vətən həsrəti yara bağlayıb. Adi günlərin birində eşitdim ki, bizi dəyişmək istəyirlər. Uzun çəkən danışıqlardan sonra bizi dəyişdilər. Uzun çəkən danışıqlardan sonra bizi inana bilmirəm ki, doğmalarımın arasındayam. İnanın ki, hospitalın bütün həkimləri mənim tam sağalıb ayağa qalxmağım üçün əllərindən gələni əsirgəməyiblər. Onların hamısınına minnətdaram. Şükür, indi vəziyyətim əvvəlkindən qat-qat yaxşıdır. Söz verirəm ki, intiqamımı düşmənlərdə qoymayacağam....

*Söhbəti yazdı:* ***Almaz Əhmədpur.***
*"XƏZƏRİN KEŞİYİNDƏ" qəzeti 29 oktyabr 1994-cü il № 43(87)*

# NAKAM ÖMÜR

Qarabağ uğrunda şəhid olmuş oğularımız özlərindən sonrakı nəsillər üçün qəhrəmanlıq rəmzinə çevriliblər. Onlar torpaqlarımızın müstəqilliyi, azadlığı üçün öz ömürlərini qurban verdilər. Və bununla da torpaqlarımızı gələcək nəsillərə əmanət qoyub getdilər. Onlar Azərbaycan torpaqlarının hər qarışı uğrunda mübarizə aparmış tarixi qəhrəmanlarımız Babəkin, Koroğlunun, Şah İsmayılın, Fətəlixanın yolunu davam etdirdilər.

Söz açacağımız belə igid oğullarımızdan biri də ömrünü, həyatını bu amal uğrunda qurban verən qəhrəman el oğulumuz haqqındadır. İyirmi beş il sürdü bu ömür. Ömrünün ən qaynar cağında yarımçıq qaldı bu ömür.

Bu ömür 1967-ci il martın 2-də Göyçay şəhərində anadan olmuş Ağamaliyev Qüdrət Malik oğlunun ömrü idi. O, öz ömrünü vətəninə, xalqına qurban verdi. Qarabağda ilk hadisələr baş verəndə Qüdrət həmişə özünü orada hiss edirdi. Həmin hadisələrdə öz istirakını görürdü. Bu hadisələrdən kənarda qalmağı özünü əsl Azərbaycan oğlu adlandıran gənclərimizə aid etmirdi.

Qüdrət hələ Bakıda olarkən 1990-cı il 20 yanvar hadisəsində də zərər çəkmişdi. Onu öz yoldaşları ilə birgə yaşadığı yataqxanada qəddarcasına döymüşdülər.

Elə o vaxtdan özünə heç yerdə yer tapa bilməyən Qüdrət 1991-ci ildə könüllü olaraq döyüşə getdi.

O, Mərgüşavan, Şuşa, Daşaltı, Malıbəyli, Gərgicahan, Sırxavənd uğounda döyüşlərdə hünər və cəsarət

göstərdi.

Bu döyüşlər onu çox sarsıtdı. Gözü qarşısında şəhid olmuş döyüş yoldaşlarının ölümü onu erməni quldurlarına qarşı qisasa çağırırdı.

Qüdrət elə bil onlarla ölüb təzədən qayıdırdı həyata. O, həyata ki, öz yoldaşlarının qanını yerdə qoymamaq üçün.

Qüdrət artıq həmin Qüdrət deyildi. Həmişə deyən-gülən, zarafatından qalmıyan Qüdrət bu hadisədən sarsılmışdı. Onun təsəvvüründə anacaq döyüş bölgələrində gördüyü o dəhşətli hadisələr həkk olunmuşdu.

Onun son döyüş yeri Tərtər ətrafı Yuxarı və Aşağı Saylı kəndinin alınması uğrundakı qanlı döyüşlər oldu.

Döyüşə Bakıdan getdiyi üçün anasına yazdığı məktubda bildirdi ki, şəhid olsam məni Göyçayda basdırın, anama yaxın olum. Elə bil ki, Qüdrətin ürəyinə danmışdı ki, bu döyüş onun son döyüşü olacaq. Bu döyüşdə Qüdrət mərkli düşmənə qarşı amansız mübarizə apardı. O sanki vaxtın azlığından istifadə edərək bütün qisasını almaq istəyirdi. Amma qəfil düşmən gülləsi Qüdrəti bu mübarizədən dayandırdı. Bununla da torpaqlarımız uğrunda döyüşən qəhraman oğlumuz Qüdrət gözlərini əbədi yumdu. İndi Qüdrət Göyçay rayonun Şəhidlər Xiyabanında uyuyur.

Biz belə şəhidlərin qarşısında baş əyirik.

***Almaz Əhmədpur***
*"MƏRHƏMƏT" qəzeti № 03(05)*
*23-30 oktyabr 2001-ci il*

# UŞAQLARIN BÖYÜK QAYĞIKEŞİ

Heydər Əliyev Fondunun prezidenti, hörmətli millət vəkili, görkəmli ictimai və siyasi xadim, dövlətimizin başçısı, möhtərəm cənab İlham Əliyevin ömürgün yoldaşı Mehriban xanım Əliyevanın ictimai fəaliyyətində millətin gələcəyi olan uşaqlara qayğı öncül yer tutur. Mehriban xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xətti ilə respublikamızın bütün bölgələridə yeni-yeni məktəb binaları tikilib və tikilməkdədir. Onlar lazımi müasir texniki avadanlıqlarla təmin olunub. Mehriban xanım respublikamızdakı müxtəlif xarakteri, müxtəlif fəaliyyət yönümlü internat məktəblərinin hamısında olub. Hər yerdə Fondun "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı istiqamətində dəyərli işlər görüb və görməkdə davam edir. Fond "Talassemiya", "Yeniləşən Azərbaycana yeni məktəb" mövzularında müntəzəm "deyirmi masa" lar keçirir. Fondun xətti ilə inşa olunan neçə-neçə yeni məktəbin tikintisində və açılışında Mehriban xanım özü iştirak edib. Uşaq evlərində və internatlarda keçirilən müxtəlif bayramlarda uşaqlarla birlikdə olub. Bu görüşlərdə dərin nəvaziş göstərdiyi uşaqların gözlərində parlayan sevinc Mehriban xanımın çöhrəsinə xüsusi yaraşıq verir. Bu semimiyyət, fərəh, qayğıkeşlik uşaqlara dünyalar qədər sevinc bəxş edir.

Uşaqlara qayğı müstəvisində Mehriban xanıma, onun rəhbərlik etdiyi Heydər Əliyev Fonduna tay olacaq ikinci bir qurum yoxdur.

Çox hörmətli Mehriban Əliyevanı – Azərbaycanın gələcəyi olan uşaqlarının böyük qayğıkeşini ad günü münasibətilə təbrik edir, ona həyatda xoşbəxtlik, ictimai və siyasi fəaliyyətində yeni-yeni uğurlar arzulayıram.

***Almaz Mütəllim qızı Zeynalova***
*Respublika Uşaq Fondunun*
*Nəsimi rayon Şöbəsinin sədri,*
*Respublika Şəhid Ailələrinə Sosial*
*Yardım İctimai Birliyinin sədri*
*«Mübariz qadın» qəzeti № 02(22)*
*26 avqust 2010*



# AĞDAMIN İŞĞALINDAN BİR İGİDİN ÖMRÜ ÖTÜR

Ötən ayın 23-də Bakıda "Şəhidlər Xiyabanında" hər zaman olduğu kimi, bu il də Ağdamın işğal günü saysız-hesabsız ağdamlılar, vətənpərvər insanlar tərəfindən qeyd olundu. Şəhid ruhlarına dualar oxundu. Anım mərasimdə çıxış edən millət vəkili Aqil Abbas bu gün burada toplaşan bütün ağdamlılar və qeyri ağdamlıların dərd bölüşgənliyini, vətən sevgisini, tezliklə bu xiyabanda və haqq dünyasında uyuyan hər bir şəhid ruhunun şad olunacağı, Qarabağın azad olunacağı, Ağdama qayıdacaqları günə qovuşacaqlarını qeyd etdi. O, bildirdi ki, mənfur ermənilər Ağdam şəhərini işğal edə biliblər, amma onlar ağdamlıları, bizim qəlbimizi, ruhumuzu işğal edə bilməyiblər. Daha sonra o, öz çıxışında Musa (ə.s.) dan, İsmayıl qurbanından misallar gətirərək 30 minlik şəhidin qurbanının da məhz böyük Allah tərəfindən göndəriləcəyini əminliklə qeyd etdi.

Müəyyən kompremistlər yolu ilə bu məsələni həllə etmək, xarici dövlətlərə arxalanmaqla deyil, yalnız ağdamlılarla biz Ağdama qayıda bilərik, dedi...

Bu gün biz qüdrətlənən Azərbaycana, ölkə başçımız cənəb İlham Əliyevə arxalanırıq. Bu günlərdə ağdamlıların yeganə "Qələbə" əzmi "Qarabağ" futbol komandasının uğurlarındır. Bu komandanı isə biz ağ-

damlılar qorumalıq.

Ağdam Rayon Hakimiyyətini başçısı H.Q.Sarıyev barədə ağdamlıların dediklərindən:

Həsən Qaçay oğlu Sarlyev 1949-cu ildə Ağdam rayonun Papravənd kəndində anadan olub. Müxtəlif vəzifələrdə çalışıb. Vətənin başının üstünü qara buludlar alanda Kolanı igidlərini başına yığıb, könülü özünümüdafiə batalyonu yaradıb. Batalyon bir çox uğurlu əməliyyatlar nəticəsində düşmənin yüksəkliklərdə yerləşən yerləşən mövqelərini ələ keçirib, Qazançı kimi strateji mövqeyi uzun müddət nəzarətdə saxlayıb. Onun özü dəsilaha sarılıb, ön cəbhədə döyüşlərdə iştirak edib. Malı ilə, canı ilə doğma torpaqlarımızı müdafiə edib. Ağdərə istiqamətində gedən döyüşlərin hamısının iştirakçısı olub.

1994-cü ildən Ağdam Rayon İcra Hakimiyyətin başcısıdır. Hazırda ərazisinin üçdə ikisində çoxu işğal olunmuşdu Ağdam rayonunun İcra Hakimiyyəti Quzanlıdakı təmtəraqsız, sadə kabinetində oturur. Bütün ağdamlılar belə deyir. Bütün günü təsərrüfatları gəzir, kənddə, məcbüri köçkünlər üçün salınan qəsəbələrdə əhali ilə görüşür. Şəhid ailələrini, müharibə veteranlarını, məcburi köçkünləri qəbul edir. Hamını səbrlə, təmkinlə dinləyib, lazımi kömək göstərir, qayğısını heç kəsdən əsirgəmir.

Artıq 16 ildir ki, Ağdam şəhəri əlimizdən alınıb və vəhşicəsinə yer üzündən silinib. Ancaq bütün çətinliklərə sinə gəlməyi bacaran ağdamlılar elin, Vətənin qeyrətini qoruyan, təəssübünü çəkən bir oğlunun

rəhbərliyi altında rayon işğal edilmiş ərazilərində Ağdamı yaşatmaqdadırlar. Quzanlıda "doğulub-böyüyən" Ağdam artıq boy atır, öz əzəl məkanına doğru irəliləyir. Ağdam yaşayır, qurub-yaradır və inkişaf edir.

İşğalın 16-cı ilində rayona 15 ildir ki, rəhbərlik edən, rayon icra hakimiyyətinin başçısı Həsən Sarıyevin dediklərindən:

-16 ildir Ağdamsız alışıb – yanan, doğma yurd-yuva, isti ev-eşik həsrəti ilə göynəyən bütün ağdamlılarının ümidi, pənahı göydə ulu Tanrıya, yerdə möhtərəm prezidentimiz İlham Əliyevdədir. Onu Quzanlı qəsıbəsində Olimpiya İdman Kompleksindəki tarixi çıxışı bütün ağdamlıları ruhlandırdı. Çörəksiz yaşamaq olar, inamsız yox. Biz bir daha şahid olduq ki, Prezident itirilmiş torpaqlarımızın düşməndən azad edilməsi uğrunda yorulmadan, bütün varlığı ilə çalışır. Bu, bizim nurlu, Ağdamlı, Qarabağlı günlərin uzaqda olmadığına ümidlərimizi artırır. Bu gün cənəb prezident İlham Əliyevin qayğısı sayəsində minlərlə ağdamlı ailə doğma Ağdam torpağına qayıtmış, müasir evlərdə məskunlaşmışdır. Onların məşğuluğunun artırılması və yaşayış şəraitinin yaxşılaşdırılması üçün imkanlardan istifadə olunur.

Son vaxtlar Quzanlıda və digər kəndlərdə tikilib istifadəyə verilmiç təhsil, səhiyyə və mədəniyyət ocaqları, Olimpiya İdman Kompleksi xeyli adamın işlə təmin olunmasına şərait yaratmışdır. Bütün bunlar bir daha sübüt edir ki, cənab prezident köçkünlərə

diqqətini bir an da azaltmır.

Ağdamın işğalından ötən 16 ildə qürurunu, ləyaqətini itirməyən ağdamlıların yeganə problemi doğma yurda dönə bilməmələridir ki, möhtərəm prezidentimiz də bu problemin tezliklə həll edilməsinə çalışır. Biz münaqişənin istənilən yolla həll olunacağına inanırıq.

Ümid edirik ki, danışıqlar nəticə verməsə, Azərbaycan Ordusu öz gücünü düşmənə göstərəcək və biz də bu savaşdan ön cərgədə gedəcəyik. Cənab Ali Baş Komandanın əmri ilə döyüşə hazırıq. Ağdamlılar prezidentimizə inanır və güvənirlər.

***A.Zeynalova***
*“İctimai fikir” qəzeti №03(08)*
*14 avqust 2009-cu il*





*Əhmədpur İbrahim*



4 Vətənpərvərlik Mərhəmət 08-15.06.2002 № (05) 05

# Əbədiyyətə qovuşaraq əbədiləşən Vətən oğulları...

Əhmədi Pur İbrahim Səfər oğlu 1955-ci il 5 sentyabrda Ağdam şəhərində anadan olmuşdur. Orta təhsillidir. O, 1962-ci ildə Ağdam şəhərində orta məktəbin 1-ci sinfinə gedib və 1972-1973-cü tədris ilində həmin orta məktəbi bitirib.

Xalqına ,Vətəninə qəlbən bağlı olan İbrahim 1981-ci ildə ailə qurdu. Həyat yoldaşı Almaz xanımla xoşbəxt ailənin təməli qoyuldu. Onlar bir-birindən xoş firəvan günlərini yaşayır, həyatın daşlı-kəsəkli yollarını birlikdə addımlayır, hər hansı bir çətinliyə də birlikdə qatlaşırdılar. Tale bu gözəl və gənc ailəyə üç övlad ,üç oğul payı qismət elədi.

Ailənin böyük oğlu Elvin Bakı Biznes-kollecinin hüquq fakültəsini bitirib. Elşən Dnepropetrovsk Universitetinin Maliyyə-kredit fakültəsinin birinci kursunda, ailənin son beşiyi Rövşən isə Nəsimi rayonundakı 46 saylı məktəbin 7-ci sinfində oxuyur.

Azərbaycan xalqının qonaqpərvərliyindən,beynəlmil əlçiliyindən istifadə edən mənfur qonşularımız-erməni "daşnaq"ları öz şovinist havadarlarının köməyi ilə xalqımıza qarşı elan olunmamış müharibəyə başladılar. Zaman-zaman Azərbaycan xalqının torpaqları hesabına öz ərazisini genişləndirən riyakar və millətçi ermənilər 1988-ci ildə soydaşlarımızı Qərbi Azərbaycandan, öz dədə-baba torpaqlarından çıxararaq qovdular. Bununla gözləri doymayan ermənilər Azərbaycan Respublikasının daxilindən də torpaq qoparmaq həvəsinə düşmüşdülər. Belə qanlı-qadalı, odlu-alovlu günlərdə hər bir igid Azərbaycan oğlu kimi İbrahim də silaha sarılaraq Vətənin ,torpağın müdafiəsinə qalxdı. Uzun müddət ayrı-ayrı özünü müdafiə batalyonlarında vuruşdu. O, 1992-ci ildən isə Azərbaycanın Milli Qəhrəmanı "Fred" Asifin könüllülər batalyonunda vuruşub. Dəfələrlə çətin döyüşlərdən igidliklə çıxan, komandirin bütün tapşırıqlarını ləyaqətlə yerinə yetirən İbrahim öz mərdliyinə, qoçaqlığına görə də başqalarından seçilirdi. Bütün döyüşçü dostları onun xətirini çox istəyir, duzlu-məzəli söhbətlərinə həvəslə qulaq asırdılar...

Yurdunu, torpağını öz canından da artıq sevən İbrahimin son döyüş yeri 1992-ci il iyunun 12-də Naxçivanik olub. Burada o igidliyinə, qəhrəmanlığına görə ən yüksək ada "Şəhid" adına layiq görüldü. Ulu Tanrının bəşəriyyətə göndərdiyi son kitab- "Qurani - Kərim " də Şəhidliyi müqəddəs bir əməl kimi qəbul edir.Şəhid üçün ağlamaq da tövsiyyə edilmir. Şəhidsiz Vətən olmur, Şəhidsiz Vətən yaşaya bilməz....

Çox cavan ailələri başsız qoyub müharibə.... Çox uşaqllar ata-anasız qalıb.. qohum əqrəbasız qalıb... Bəs gözüyaşlı analar, atalar, bacı və qardaşlar?.. Onları yada salmamaq olmaz. Müharibə neçə-neçə bacını qardaşsız qoyub. Yetim qalmış uşaqlara, qara geyinmiş qız-gəlinlərə,ana və bacılara baxanda, insanın ürəyi qanla dolur... Kim gətirdi bu bəlanı xalqımızın başına?! Bu müharibə kimə lazım idi axı?! Hər halda mənim qədirbilən xalqıma, mənim çörək verən xalqıma lazım deyildi bu dəhşət,faciə!

İgid oğullarını Şəhid verən xalqımız heç vaxt əyilməyib, sınmayıb...

Yurdu darda görüb, qaşı çatıldı,
Şirin yuxusuna haram qatıldı.
Düşmənin üstünə şir tək atıldı,
Səngərə şir kimi sinən oğullar.

Döyüşlərdə titrəmədi dizləri,
Buna şahid dərələri-düzləri.
Vətən üçün qurban getdi özləri
Pəhləvan oğullar, ərən oğullar !

Seçmələrin seçməsiydi, gözüydy,
Qəlblərində yanan Hörmüz közüydü,
Koroğlunun, Cavanşirin özüydü
Dəli nərələrlə dinən oğullar!

Allahverdi Abbasovun yuxarıdakı misraları da xalqımızın belə igid, qəhrəman ogullarına həsr olunub. Onların haqqında yüzlərlə şer, kitab, dastan yazılıb və yenə də yazılır. Şəhidlərimiz haqqında nə qədər deyilsə, yazılsa da azdır. Şəhidlərimizin xatirəsi xalqımızın qəlbində daimidir, əbədidir. Şəhid Əhmədi Pur İbrahim Səfər oğlunun oxuduğu orta məktəbə və yaşadığı küçəyə onun adı verilib.

Adı əbədiləşdirilib.

Onun həyat amalını bu gün həyat yoldaşı Almaz xanım davam etdirir. Almaz xanım 1984-cü ildə SSRİ-nin 50 illiyi adına Stepanakert Pedaqoji İnstitutunun filologiya fakültəsini bitirib. Uzun müddət "Azərbaycan Ordusu" qəzetində əməkdaşlıq etmişdir. O, hal-hazırda Respublika Şəhid Ailələrinə Qayğı Cəmiyyətinin Nəsimi rayon şöbəsinin sədridir. Almaz xanım həm də "Mərhəmət" qəzetinin parlament müxbiridir. Övladlarını atasız, lakin ataları İbrahim kimi mərd və qeyrətli böyüdən Almaz xanıma həyatda can sağlığı, nəvə böyütmək səadəti arzulayırıq.

Bir neçə gündən sonra, iyun ayının 12-də Şəhid İbrahimin Vətən yolunda Şəhid olmağının 10 ili tamam olur. Onun xatirəsi önündə,eləcə də onun kimi yüzlərlə Vətən yolunda şəhid olan igidlərin xatirəsi önündə baş əyirik, Çünki Siz ölmədiniz "ey Şəhidlər!" Öz Ölümünüzlə tarix yaratdanız, tarixləşdiniz, əbədiyyətə qovuşdunuz! Uca zirvəyə qalxdınız! deyirik,

*P.S.* Başınızı uca tutun, ey Şəhid anaları Şəhid bacıları,Şəhid qadınları!.. Çünki Siz Vətən yolunda Şəhid vermisiniz! Əgər lazım olsa yenə verərsiniz, hətta özünüz də Şəhid olarsınız!!! Bunu hər adam bacarmır və hamıya da belə xoşbəxtlik nəsib olmur.

Şəhidlik uca zirvədir, əl çatmaz ona!

Xaliddin ƏLİYEV



Əhmədpur İbrahim

Дөјүш хасијјәтнамәси

Верилир 3 сентјабр 1955-чи илдә Ағдам шәһәриндә анадан олмуш Әһмәдпур Ибраһим Сәфәр оғлуна.

Әһмәдпур Ибраһим Сәфәр оғлу Гарабағда мә"лум һадисәләр башландығы илк күнләрдән вәтәнимизин башга гејрәтли оғланлары кими о да торпағымызын ермәни тәҹавүзүндән азад олунмасы уғрунда апарылан мүбаризәјә гошулмушдур. Ағдамда Фред Асифин башчылыг етдији көнүллүләр баталјонунда о биринчиләр сырасында олду. Тарихимизин ән ачы сәһифәләриндән бири олан Хоҹалы фаҹиәси заманы сағ галмыш сојдашларымызы дүшмән пәнҹәсиндән гопармаг мәгсәдилә Фред Асифин дәстәсиндә Әһмәдпур Ибраһим 26-27 тарихиндә өзүнү Хоҹалылара јетирди.

Бундан сонра Әһмәдпур Ибраһим 6 март тарихиндә Әскәран әмәлијјаты заманы өзүнү бир дөјүшчү кими көстәрди. Әл гумбарасы илә бир нечә ермәни гулдуруну мәһв едәрәк һиссәјә ики дүшмән автоматыны "трофеј" кими кәтирмишдир.

10 мај тарихдә Аранзәмин, Пирҹамал уғрунда кедән дөјүшдә Әһмәдпур Ибраһим Пир јүксәклијинә илк дәфә чыханлардан [illegible]. Бу дөјүшдә о јаралы дөјүш јолдашынын көмәјинә чатараг ону дөјүш мејданындан чыхармаға мүвәффәг олмушдур.

15 мај 1992-чи ил тарихдә Күлаблы кәндинин мүдафиәси заманы Әһмәдпур Ибраһим дөјүш јолдашлары илә бирликдә дүшмәнин бир ичи һәрби сурсатла долу автомашыныны әлә кечирмәјә мүвәффәг олду.

Даһа сонра һиссәмизин тарихинә гызыл һәрфләрлә јазылмыш Нахчываник, Гара-гаја әмәлијјаты; 12 ијун 1992-чи ил тарихдә һүҹум заманы дөјүш јолдашлары илә бирликдә Гызылҹа-бел јүксәклијини әлә кечирәрәк һүҹуму даһа да кенишләндирдиләр. Ар[illegible]г ирәлидә Нахчываник кәнди көрүнүрдү. Елә бу заман күчлү партлајыш заманы Әһмәдов Шүкүр јараланды. Әһмәдпур Ибраһим өзүнү јолдашынын үстүнә атараг ону күллә јағышы алтында дөјүш мејданындан чыхартды.

Лакин сәһәри күн јә"ни 13 ијун тарихдә өзү минамијот партлајышындан һәлак олду.

Дөјүш хасијјәтнамәси верилир аидијјәтинә тәгдим етмәк үчүн.

859 №-ли һәрби һиссәнин
командири: баш лејтенант : Е.Мәммәдов.



№ 28/889

01/07

СВИДЕТЕЛЬСТВО О СМЕРТИ
ӨЛҮМ ҺАГГЫНДА ШӘҺАДӘТНАМӘ

Гражданин (ка) / Вәтәндаш: Әһмәдпур
фамилия — фамилијасы

Ибраһим Сәфәр-оғлу
имя, отчество — ады, атасынын ады

умер (ла): 13-июн 1992-илдә
число, месяц, год — күн, ај, ил

мин доггуз јүз доххан икинчи
(цифрами и прописью — рәгәм ве јазы илә)

в возрасте 37 лет, о чем в книге регистрации актов о смерти
јашында өлмүшдүр, бу барәдә өлүм һаггында акт гејдләри
китабында 1992 года / илдә август месяца / ајынын 20 числа / күнүндә
произведена запись за № 152 илә гејд едилмишдир.

Причина смерти / Өлүмүн сәбәби: одлу силаһдан ачылан
күллә јараланмасындан

Место смерти: город (село) / Өлүмүн јери: шәһәр (кәнд): Нахчыван
район / рајону: Сәдәрәк
область, край / вилајәт, өлкә
республика / республика: Азәрбајҹан
Место регистрации / Гејд едилән јер: Ахдам рнВВАТ
наименование и местонахождение органа ЗАГСа —
шө'бәси
ВВАГ органынын ады вә олдуғу јер

Дата выдачи / Верилдији вахт "20" август 1992 ил.

М. П.
М. Ј.

Заведующий отделом
записи актов гражданского состояния
Вәтәндашлыг вәзијјәти актлары гејдијјаты
шө'бәсинин мүдири

IV-ЖГ № 380181

6 илдән бәри торпагларымызда ҝедән ганлы-
гадалы вурушларын сону нијә ҝөрүнмүр ҝөрәсән?
Нијә сүфрәмизин гырынтылары илә бөјүјән, ән
јахшы евләрдә јашајыб, ән јахшы вәзифәләри
тутан хаин гоншуларымыз бизә гаршы бу гәдәр
амансыз олублар? Будурму
онларын бизә ҹавабы,
Нә дејәк? Гој онларын хаин нијјәтләри өз
башларында чатласын.

Мән исә Ибраһим сәнә демәјә сөз дә
тапмырам. Ахы нә дејим, нечә дејим ки, сәнсиз һәр
шеј ҝөзләримдә бир нечә дөнүб. Нечә дејим ки,
үрәјиндә јашатдығын дүнјалара сығмајан арзу-
ларын јарымчыг галды, мәндә онлары һәјата
кечирә билмәдим. Нечә дејим ки, дүз 2 илдир
ки, сәнинлә дәрдими бөлүшдүрә дә билмирәм.
Шәһидләр хијабанында ҝүл-чичәјин арасында
гәрг олунмуш гәбрин инди бир хәјал кими
ҝөзләримин гаршысындан ҝәлиб, кечир. Белә дә
иш олар илаһи? Инсан өз доғмасынын гәбрин-
дән нечә аралы дүшәр? Бу нә дәһшәтли мүһари-
бә имиш илаһи? Нә исә.

Ибраһим, сәнин үрәјинин нә гәдәр вәтән еши
илә дөјүндүјүнү мән чох јахшы билирдим. Әҝәр
белә олмасајды сән дүнјалар гәдәр севдијин зоғлуну
гојуб бу дәһшәтли мүһарибәнин гојнуна киши
кими мәрд-мәрданә атылмаздын. Әҝәр белә олма
сајды сәндә бәзи үздән ираг ҹаванларымыз
кими мин чүр бәһанәләр тапыб арадан чыхар-
дын. Сәни онсузда апармырдылар. Сән исә галд
билмәздин. Буна сәнин виҹданын јол вермәзди.

Инди һамымыз сәнинлә фәхр едирик, Ибраһим. Һәм дә фәхр едирик ки, Азәрбајҹан халгынын нә јахшы ки, сәнин кими оғуллары чохдур, лап чох. Вахт кәләҹәк сәнин вә сәнин силаһдашларынын, һансы ки, торпагларымызын азадлығы уғрунда ҹанларыны гурбан вериб-ләр, онларын адлары вәтән тәәссүбү чәкән-ләрин гәлбиндә һәмишә јашајаҹагдыр.
Бах онда 10 јашлы Елвинин мән атам кими дөјүшүб ермәниләри атам кими кәбәрдәҹәм, 9 јашлы Елмәнин телевезија екранларында, әскәрләрә ~~арасында~~ бахыб, бахын лап мәним атам кими дөјүшүр вә нәһајәт 5 јашлы Рөвшәнин атам нә вахт кәләҹәк? О, кедәндә демишди ки, сәнә ермәни гулағы кәтирәҹәм, бәс нијә кәлмир, - кими - - үрәк ағрыдан суалларына јалан-доғру ҹаваб верә-верә сәни көзләјәҹәјик. Ахы дејирләр шәһидлик зирвәсинә учаланлар өлмүрләр. Сән бу зирвәни әсл гүдрәтли вәтән оғлу кими өз күҹүнлә фәтһ етмисән. Раһат ују Ибраһим.
Мән инанырам ки, гүрәтли оғулларымызын сајәсиндә торпагларымызда азад олунаҹаг, сәнин кими горхмаз гәһрәман вәтән оғулларынын гәбриндә мурдар ермәни тапдаг-ларындан азад олунаҹаг, мүтләг олунаҹаг.
Бах онда мән башымы дик тутуб бир даһа сәнинлә фәхр едәҹәм

Әһмәднур Алмаз.

## Zeynalova Almaz Mütəllim qızı



Zeynalova Almaz Mütəllim qızı 1962-ci ildə Ağdam rayonunda anadan olub. 1988-ci ildə SSRİ-nin 50 illiyi adına Stepanakert Pedaqoji İnstitutunun Filologiya fakultəsini bitirib. İlk əmək fəaliyyətinə doğulduğu Ağdam rayonunda "Qarabağ" qəzetində makinaçı kimi başlasa da, jurnalistikaya olan böyük həvəsi sonradan onun bu sənətə bağlanmasına rəvac vermişdir.Ağdam zəbt olunduqdan sonra Bakı şəhərində məskunlaşmalı olan Almaz xanım 2 il bu qəzetdə çalışıb. Bir müddət sonra isə Müdafiə Nazirliyinin "Azərbaycan Ordusu" qəzetində fəaliyyət göstərib. Bu qəzetin xətti ilə cəbhə bölgələrində, çadır şəhərciklərində dəfələrlə olub. Kəsərli yazılar hazırlayıb. Gördüyü işlər, çalışqanlığı rəhbərlik tərəfindən bir çox diplom və fəxri-fərmanlara layiq görülüb.

Vətənpərvər ailəsi ilə fəxr edir Almaz xanım. Həyat yoldaşı Əhmədnur İbrahim konüllü olaraq cəbhəyə gedib, qəhrəmanlıqlar göstərib. Naxçivanik uğrunda gedən qanlı döyüşdə şəhid olub. Almaz xanım həyat yoldaşının keçdiyi döyüş yolu haqda kitab üzərində işləyir. Yaxın günlərdə çapdan çıxacaq.Almaz xanım ictimai işlərdə hər dövrdə fəal olub. Hal-hazırda "Respublika Şəhid Ailələrinə Yardım" ictimai birliyinin sədridir.

Həyatda mübariz qadın, ailədə qayğıkeş anadır. 3 oğlu var. İki oğlu ali təhsil alıblar. Kiçik oğlu Hərbi Akademiyada təhsil alır. Atasının uğrunda şəhid olduğu torpaqların alınmasında iştirak etmək onun ən böyük arzusudur.




*Ağdaş Hərbi Komissarlığında gənclərin hərbi xidmətə yola salma mərasimi*



*Müdafiə Nazirliyinin "Azərbaycan Ordusu" qəzetinin kollektivi (soldan birinci Almaz Zeynalova)*





*"Qalxan" düşərgəsi. Almaz Zeynalova, Həmid Qafarov*



*Füzuli rayonu. "N" saylı hərbi hissə*







*Tovuz rayonu. "N" saylı hərbi hissə*





*“Şəhidin məktubu” qısa metrajlı filmin təqdimatı*




*Uşaq evində körpələrə bayram sovqatının verilməsi*



*Şəhid ailələrinə sosial dəstək ictimai biruiyinin Əmək və Əhalinin Müdafiəsi Nazirliyində Səlim Müslümovla şəhid ailəsi ilə görüşdən*



*Füzuli rayonu. "N" saylı hərbi hissə*



*Ağdam rayonunda şəhid Əhmədov Qaryağdının ailəsi ilə görüş*



*Ağdam rayon Quzanlə qəsəbəsi. Şəhid Əhmədpur İbrahimin qardaşı İnqilab və döyüşçü yoldaş Fərahim ilə müsahibə zamanı*




*Şəhid Əhmədpur İbrahimin dünyasını dəyişmiş övladı*
*Elşənin məzarına ziyarət zamanı*





Almaz xanım övladları
Elvin və Elşən

Hazırda zabit olan
Rövşən Əhmədpur.
Uşaqlıqdan arzusu hərbçi
olmaq idi



Bibisi Solmazxanım ilə Elvin və Elşən (1993-cü il)




*Şəhid Əhmədpur İbrahimin ailəsi*




*Almaz xanım nəvəsi Nəzrin ilə*



*Almaz xanımın anası Xədicə xanım*




*Müdafiə Nazisliyinin "N" saylı hərbi hissəsinin zabiti*
*Əhmədpur Rövşən*

# İstifadə olunan ədəbiyyat siyahısı:

1. Ulu məkan. Milli-mənəvi dəyərlərin təbliği, müstəqil ictimai-siyası qəzet № 03 (20) 10 iyun 2009- cu il
2. İctimai fikir. Beynəlxalq, ictimai-siyasi, hüquq qəzeti № 04 (09) 19 sentyabr 2009-cu il .
3. German. Qeyb olmuş şəhərin oyaq yaddaşı. I cild. Bakı, MBM, 2014.-200s
4. Mübariz qadın. Beynəlxalq İctimai-siyasi, ədəbi-bədii qəzet. № 02 (22) 26 avqust 2010
5. Mərhəmət. İctimai-siyasi, hüquq qəzeti. № 03 (05) 23-30 oktyabr, 2001-ci il, № 03 (05) 8-15 iyun 2002-ci il
6. Paralel . Gündəlik müstəqil qəzet. № 109-110 (770)
7. Elm və zəka. Elm-təhsil qəzeti . № 01 (145) 11 yanvar 2010-cu il.
8. Xəzərin keşiyində. Azərbayacan Respublikası Hərbi Dəniz Qüvvələri qəzeti. № 43 (87) 29 oktyabr 1994-cü il
9. İradə Əlili.Qarabağın Tutusu .Bakı, MBM , 2015.- 114 s.
10. Vüsal Zeynalov. Azərbaycan ziyalıları . Bakı, Bayramoğlu, 2008.-251s.
11. Minaxanım Əkrəmqızı. Görüşənədək, yoldaş baş leytenanat/ Hərbi bilik.Elmi-nəzəri, publisistik jurnal. 2004, №5 .s 93
12. İradə Əlili. Dünya sevənlərindir. Bakı,MBM, 2014.-72

# MÜDƏRİCAT

Güllə səsindən doğulan kitab ............................................. 6
Yarıda qalmiş bir ömrün tarixçəsindən ................................ 13
Müharibə ............................................................................ 15
Müharibənin Ağdamdan görünən reallığı ........................... 22
Erməni "daşnak"ları xalqımıza qarşı elan
olunmamış müharibəyə başladılar ...................................... 33
Şəhid Əhmədpur İbrahimin həyyat amalını həyat yoldaşı
Almaz xanım Zeynalova davam etdirir ............................... 41
Rahat uyu İbrahim ............................................................. 52
Döyüşçü yoldaşları və yaxınları Şəhid Əhmədpur İbrahim
haqqında ............................................................................ 55
Şəhid ailəsinin Vətən sevgisi ............................................. 87
Almaz Zeynalova (Əhmədpur) mətbutda .......................... 109

**İradə Əlili**

# GÜLLƏ SƏSİNDƏN DOĞULAN KİTAB

Naşir:  Ceyhun Əliyev
Mətni yığdı: Ülviyyə Əliyeva
Texniki redaktor: Ülvi Arif

Təkrar nəşr
Çapa imzalanıb: 12.05.2023
Ş.ç.v. 9, tiraj 200
"Ecoprint" mətbəəsində çap olunmuşdur.